QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 019 (5491) 31 **yanvar** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**


# Azərbaycanda turizmin inkişafı üçün mühüm işlər görülür

*Prezident İlham Əliyev Qusarda "Şahdağ" qış-yay turizm kompleksinin növbəti inkişaf planları ilə tanış olub*



Səh → 2


**Sabitliyin mənbəyi Azərbaycan xalqının iradəsidir və xalq-iqtidar birliyidir!**



→ 8

**Əli Həsənov: "Jurnalistlərin problemlərinin həllinə yardım etmək qəbahətdirmi?"**



→ 4

**Duarte Paçeko: "Azərbaycandakı tolerantlıq və birgəyaşayış ənənələri məndə dərin təəssüratlar yaratdı"**



→ 4

**Hikmət Babaoğlu: "Azərbaycan iqtisadiyyatı yeni regional mərkəzlərin yaradılması ilə növbəti keyfiyyət mərhələsinə qədəm qoyub"**



→ 6

**Söz və mətbuat azadlığı dövlətimizin demokratik inkişaf göstəricisidir**



→ 12

**Bəhruz Quliyev: "İnkişaf və tərəqqimizin əsasında lider-xalq birliyi və qətiyyəti dayanır"**



→ 7

→ 11

**"Bunları Əli Kərimlinin son çırpıntıları hesab edirəm"**



→ 14

**Hafiz Hacıyev: "Fevralın 1-də Aslan İsmayılov məhkəməyə əli, qolu bağlı şəkildə gətiriləcək"**



→ 16

**Elxan Məmmədov: Millətlər Liqası bizim üçün yeni imkanlar və şanslar yaradır**



# Azərbaycanda turizmin inkişafı üçün mühüm işlər görülür

*Prezident İlham Əliyev Qusarda "Şahdağ" qış-yay turizm kompleksinin növbəti inkişaf planları ilə tanış olub*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da Qusarda "Şahdağ" qış-yay turizm kompleksinin növbəti inkişaf planları ilə tanış olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov Prezident İlham Əliyevə "Şahdağ" qış-yay turizm kompleksinin hazırkı vəziyyəti və burada bu il ikinci mərhələdə görüləcək işlər barədə məlumat verdi. Qeyd edildi ki, burada dəniz səviyyəsindən 2350 metr yüksəklikdə 5 nömrəli lift meydançası inşa ediləcək və 4,2 kilometr uzunluğunda yeni eniş zolağı tikiləcək. Bu, ən uzun zolaq olmaqla yanaşı, mürəkkəbliyinə görə də qırmızı dərəcəli zolaq olacaq.***



Həmçinin dövlətimizin başçısına məlumat verildi ki, bu il kompleksin əsas meydanında əyləncə infrastrukturunun qurulması da planlaşdırılır. Burada "Boulinq", tennis və digər stolüstü oyunlar zalı, kinoteatr, musiqi mərkəzi, həmçinin suvenir mağazaları, iaşə və xidmət obyektləri inşa ediləcək.

Kompleksin yay mövsümündə də xidmət göstərməsi üçün burada göl yaradılacaq. Yay mövsümündə turistlər bu göldə həm üzəcək, həm də qayıqlarla səyahət edəcəklər. Qış mövsümündə isə bu göldən qaryaratma üçün ehtiyat mənbəyi kimi istifadə olunacaq.





İkinci mərhələdə görülməsi planlaşdırılan işlərə bu ilin yaz aylarından başlanılacaq. Bunun üçün indidən hazırlıq işləri görülür.

Dövlətimizin başçısına kompleksin yol infrastrukturu barədə də ətraflı məlumat verildi. Bildirildi ki, kompleksin ərazisindən keçən Qusar-Ləzə yolu onun kənarından inşa olunacaq. Bu da imkan verəcək ki, yuxarı kəndlərin sakinləri kompleksin ərazisinə daxil olmadan hərəkət etsinlər. Hazırda bu yolun yarısının torpaq yatağı hazırlanıb. Qalan işlərin ilin sonuna qədər tamamlanması nəzərdə tutulur. Bu yeni yoldan kompleks ərazisinə iki giriş nəzərdə tutulub. Kompleksin girişində böyük avtomobil dayanacağının da istifadəyə verilməsi planlaşdırılır.

Məlumat verildi ki, kompleksin üçüncü mərhələsi ilə bağlı layihələndirmə işləri aparılır. Kompleksin əsas meydanının ərazisi ilə tanış olan dövlətimizin başçısı tapşırıq və tövsiyələrini verdi.

x x x

Sonra Prezident İlham Əliyev "Şahdağ" qış-yay turizm kompleksində xizək sürdü.






# Jurnalistlər üçün inşa edilmiş ikinci binadakı mənzillərin açarları və sənədləri sahiblərinə təqdim edilib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə jurnalistlər üçün tikilmiş ikinci binadan mənzil alan KİV nümayəndələrinə yanvarın 30-da sənədlərin və açarların təqdim edilməsi mərasimi keçirilib.**

**AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) təşkilatçılığı ilə keçirilən tədbirdə Prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov iştirak edib.**





KİVDF-nin icraçı direktoru Vüqar Səfərli tədbirdə çıxış edərək jurnalistlər üçün tikilən ikinci binanın ötən ilin iyulunda Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verildiyini diqqətə çatdırıb, bu gün mənzillərin sənədlərinin və açarlarının sahiblərinə təqdim olunacağını vurğulayıb. Mənzillərin artıq yaşayış üçün tam hazır olduğunu deyən V.Səfərli jurnalistləri təbrik edib. KİVDF-nin icraçı direktoru dünyada analoqu olmayan belə bir nəcib təşəbbüsə görə bütün jurnalistlər adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə dərin minnətdarlığını bildirib.

Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov jurnalistlərə təbriklərini çatdıraraq, dövlətimizin başçısının ölkəmizdə mətbuata və jurnalistlərə daim yüksək diqqət və qayğı göstərdiyini vurğulayıb. Son illər bəzi üzdəniraq jurnalistlərin Azərbaycanda media siyasətinin "iflasa uğraması" barədə əsassız fikirlər səsləndirdiklərini təəssüf hissi ilə qeyd edən Əli Həsənov həmin şəxslərin Qərbin müəyyən mərkəzləri tərəfindən ayrılan qrantlar aldıqlarını və onların maraqlarına xidmət etdiklərini diqqətə çatdıraraq deyib: "Çox təəssüf ki, bəziləri qəbahətə yol verərək Azərbaycanda media siyasətinin iflasa uğradığını bildiriblər. Məgər öz ölkəsinin vətəndaşlarını dövlətin daxilində və xaricində baş verən hadisələrlə tanış etmək istiqamətində fəaliyyət göstərən jurnalistlərə qayğı göstərmək, onların maddi-mənəvi problemlərinin həllinə yardım etmək bu qədər mənfi haldır ki, bunu dövlətin informasiya siyasətinin iflası kimi dəyərləndirirlər? İflasa uğrayan Azərbaycan dövlətinin jurnalistlərə yönəlmiş humanist siyasəti deyil, illərdir milyonlarla valyuta xərcləyib Azərbaycan mediasını öz təsiri altına salmaq istəyən dairələrin siyasətidir".

Həmin "qrant mediası"nın nümayəndələrinin Qərbin müxtəlif mərkəzlərinin təşəbbüsü ilə "Non TAP", yəni, Azərbaycanın strateji maraqlarına qarşı aksiya keçirmək istədiklərini vurğulayan Prezidentin köməkçisi deyib ki, xarici qrant siyasətini həyata keçirmək istəyənlərin formalaşdırmağa çalışdığı jurnalistika budur. Əgər hər hansı bir ölkənin müstəqil mediasını təsir altına alaraq onu öz dövlətinə qarşı istifadə etmək inkişaf göstəricisidirsə, Azərbaycan dövlətinə belə inkişaf lazım deyil.

Əsası "Əkinçi" qəzeti ilə qoyulan Azərbaycan mətbuatının sağlam təməl üzərində inkişaf etdiyini bildirən Əli Həsənov diqqətə çatdırıb ki, ölkəmizdə media siyasətinin iflasa uğradığını, müstəqil medianın məhv olduğunu deyənlər baxıb görsünlər, Azərbaycanda bu gün inzibati qaydada media üzərində təsiri olan hansısa bir dövlət qurumu varmı? Azərbaycan bəlkə bölgənin yeganə və ilk dövləti idi ki, Mətbuat və İnformasiya Nazirliyini ləğv edərək jurnalistlərin məsuliyyətini, öhdəliyini, yaradıcılıq normalarını onların özlərinin yaratdığı ictimai quruma - medianın özünütənzimləmə orqanı olan Azərbaycan Mətbuat Şurasına verdi. Bu gün Azərbaycan dövləti jurnalistlərə yardım edir. Dövlət jurnalistlərin bəlkə də çox çətinliklə, yaxud heç vaxt ala bilməyəcəyi mənzillər tikib onlara hədiyyə edir. Siz bu mənzili ala da, almaya da bilərsiniz. Əgər



hansısa qüvvələr bunu Azərbaycan mediasının iflası kimi dəyərləndirirsə, əlbəttə, bu, çox böyük qəbahətdir.

1998-ci ildə ulu öndər Heydər Əliyevin Fərmanı ilə mətbuat üzərində nəzarətin tamamilə ləğv edilməsinin Azərbaycanda azad medianın inkişafında mühüm rol oynadığını deyən Əli Həsənov bildirib ki, Prezident İlham Əliyev hakimiyyətinin ilk günlərindən Ümummilli Liderin mətbuata qayğı siyasətini uğurla davam etdirir. Bu gün Azərbaycanda media ilə münasibətlər şəffaf şəkildə - Azərbaycan Mətbuat Şurası vasitəsilə nizamlanır. Azərbaycan dünyada yeganə ölkədir ki, jurnalistlər üçün dövlət vəsaiti hesabına mənzillər tikilib onların istifadəsinə verilir. Bu gün Azərbaycanda yazılı mediaya da yüksək qayğı göstərilir. Çünki yazılı media hər bir ölkənin salnaməsini yaradır. Bu gün ölkəmizdə yazılı media Azərbaycan cəmiyyətinin müxtəlif sahələrdə zəngin irsinin qorunmasına xidmət edir.

Əli Həsənov bildirib ki, ölkəmizdə mətbuatın inkişafına göstərilən yüksək diqqət və qayğı, medianın sərbəst fəaliyyətinin təmin olunması istiqamətində görülən işlər Azərbaycanda media siyasətinin "iflasa uğradığını" deyənlərin qərəzli olduqlarını sübuta yetirir. 2004-cü ildən bu günə qədər Prezident İlham Əliyevin həyata keçirdiyi media siyasətindən, dövlətimizin başçısının jurnalistlərə diqqət və qayğısından hansı mətbuat orqanı müstəqilliyini itirib?! Belə hal yoxdur. Prezident İlham Əliyev bu günlərdə Davosda çıxışında da bildirdi ki, Azərbaycanda söz, mətbuat, siyasi fəaliyyət azadlığının, digər vətəndaş hüquqlarının, ictimai normaların pozulduğunu kim iddia edirsə, biz onlarla açıq dialoqa hazırıq. Belə iddiaların heç bir əsası yoxdur. 2008-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması ilə Azərbaycan dövlətinin mediaya yardımları şəffaflaşdırıldı, sistemləşdirildi, bu proses konseptual platforma üzərində quruldu. Fondun kimə və nəyə yardım göstərdiyi şəffaf şəkildə cəmiyyətə bəyan olunur. Cəmiyyətə şəffaf şəkildə bəyan olunan siyasət yaxşıdır, yoxsa gizli şəkildə, kabinetlərdə bir-iki xarici agentlə birlikdə ayrılmış qrantlar? Belə gizli qrantların və dövlətin şəffaf yardımının fərqini hamı yaxşı bilir və əlavə izahata ehtiyac yoxdur. Odur ki, biz Azərbaycan dövlətinin, Prezident İlham Əliyevin yürütdüyü informasiya, media, siyasi plüralizm siyasətini dövlətimizin uğurlarından biri kimi dəyərləndirir və bu siyasətə qarşı yönəlmiş ittihamları qəbul etmirik.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin jurnalistlərə təbriklərini çatdıran Əli Həsənov bildirib ki, dövlətimizin başçısı əhalinin, o cümlədən jurnalistlərin problemlərinin dövlət tərəfindən həll edilməsinə xüsusi diqqət yetirir. Azərbaycan Prezidentinin bu nəcib təşəbbüsləri, dövlətimizin uğurla həyata keçirdiyi nəhəng layihələr, o cümlədən TANAP, TAP və s. layihələr Azərbaycan xalqının, vətəndaşlarımızın maraqlarına xidmət edir.

2018-ci ilin ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edildiyini, həmçinin bu il növbəti prezident seçkilərinin keçiriləcəyini xatırladan Əli Həsənov deyib ki, KİV nümayəndələri bununla əlaqədar təşkil olunacaq tədbirlərdə, ölkəmizin uğurlarının təbliğində, eləcə də prezident seçkilərində yüksək fəallıq nümayiş etdirəcək, jurnalistlərin dostu olan dövlətimizin başçısının ətrafında sıx birləşəcəklər. Sonra mənzillərin sənədləri və açarları jurnalistlərə təqdim edilib.

# Əli Həsənov: "Jurnalistlərin problemlərinin həllinə yardım etmək qəbahətdirmi?"




"Yeni mənzillərinizdə öz həyatınızı, yaradıcılığınızı uğurla davam etdirin. Mən təsəvvür etmirəm ki, bundan gözəl, yaxşı nə ola bilər? Bu sevinc sizin çöhrənizdən, nikbin baxışlarınızdan hiss olunur. Azərbaycan dövlətinin jurnalistlərlə bağlı həyata keçirdiyi humanist aksiyaya minnətdarlıq dolu baxışlarınızı gördükdən sonra qəbahətə yol verən bəzi insanların hərəkətlərinə təəssüf edirəm". Bu fikirləri Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov jurnalistlər üçün inşa olunan ikinci binanın sakinlərinə açarların təqdim olunması mərasimində səsləndirib. Əli Həsənovun sözlərinə görə, çox təəssüflər olsun ki, bəziləri qəbahətə yol verərək iddia edirlər ki, Azərbaycanın media siyasəti iflasa uğrayıb: "Məgər öz dövlətinin vətəndaşlarına, dövlətdaxili və xarici aləmdə baş verən hadisələrlə tanış etmək istiqamətində fəaliyyət göstərən jurnalistlərə dövlət qayğısı göstərmək, onların maddi-mənəvi problemlərinin həllinə yardım etmək qəbahətdirmi? Bu, o qədər qəbahətli bir haldır ki, bunu dövlətin media siyasətinin iflası kimi dəyərləndirilər?

Prezidentin köməkçisi vurğulayıb ki, iflasa uğrayan Azərbaycan dövlətinin jurnalistlərə yönəlik humanist siyasəti deyil, illərdir yüz milyonlarla valyuta xərcləyib Azərbaycan mediasını öz təsiri altına salmaq istəyən dairələrin siyasətidir: "İflasa uğrayan o siyasətdir ki, illərdir özünün vergi ödəyicilərinin pullarını qrant adı ilə başqa ölkələrin jurnalistlərini, başqa dövlətlərin media nümayəndələrini təsiri altına salaraq öz dövlətinə, milli maraqlarına qarşı istifadə etməyə çalışanların siyasətidir".

Əli Həsənov diqqətə çatdırıb ki, bu günlərdə qrant mediasının "ünlü nümayəndələri", qrant siyasətini həyata keçirənlərin Azərbaycan jurnalistlərindən hazırladıqları, formalaşdırdığı vətəndaşlar Avropanın ayrı-ayrı mərkəzlərində - Fransa, Almaniya, İngiltərə, İtaliya parlamentləri qarşısında yığışaraq "no TAP" aksiyası, yəni Azərbaycanın strateji marağı olan "TAP layihəsinə yox deyək" aksiyası həyata keçirmək istəyiblər: "Əgər belə jurnalistlərin mövcudluğu və bir ölkənin müstəqil mediasını təsir altına alaraq onu öz dövlətinə, dövlətçiliyinə qarşı istifadə etmək inkişaf göstəricisidirsə, Azərbaycan dövlətinə belə inkişaf lazım deyil. Azərbaycan mediasının təməli sağlam qoyulub".

Əli Həsənov bildirib ki, böyük maarifçi alim Həsən bəy Zərdabi milli Azərbaycan mətbuatını yaradarkən, 1875-ci ildə "Əkinçi" qəzetini təsis edərkən və sonrakı dövrlərdə "Əkinçi" ənənələri ilə jurnalistikaya baş vurub Azərbaycan mediasını bu günə qədər yaşadan, onun inkişafına dəstəyini, xidmətini göstərən insanlar medianı bu cür təsəvvür etmirdilər. Media ilk növbədə insanları informasiya ilə təmin etməli, maarifləndirməlidir. Media insanlarda yaxşı nümunələr formalaşdırmalıdır.

## Duarte Paçeko: "Azərbaycandakı tolerantlıq və birgəyaşayış ənənələri məndə dərin təəssüratlar yaratdı"



Parlamentlərarası İttifaqda "12 Plyus Geosiyasi Qrupu"nun katibi, Portuqaliya parlamentinin deputatı Duarte Paçeko Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) olub. Bu barədə AZƏRTAC-a komitədən məlumat verilib. Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı görüşdə qonağa Azərbaycanda mövcud olan dinlərarası tolerantlıq və dialoq, multikulturalizm ənənələri barədə məlumat verib. O bildirib ki, ölkəmizdə hazırkı dövlət-din münasibətləri əsrlər boyu Azərbaycan xalqının formalaşdırdığı qarşılıqlı hörmət və dözümlülük ənənələrinin qorunub saxlanılmasına və inkişaf etdirilməsinə yönəlib.

Portuqaliyalı deputata Dövlət Komitəsinin fəaliyyəti barədə məlumat verən Mübariz Qurbanlı ölkəmizdə dini radikalizmə qarşı inzibati, iqtisadi və ideoloji istiqamətlərdə aparılan mübarizənin artıq nəticə verdiyini bildirib. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan sədr Ermənistanın Azərbaycan torpaqlarını zəbt etdiyini, işğal altında olan ərazilərimizdə Azərbaycan xalqının maddi-mədəni və mənəvi irsinə ağır zərbə vurulduğunu diqqətə çatdırıb. Portuqaliya parlamentinin deputatı Duarte Paçeko Azərbaycandakı tolerantlıq və birgəyaşayış ənənələrinin, həmçinin bu istiqamətdə yürüdülən dövlət siyasətinin onda dərin təəssüratlar yaratdığını bildirib. O, Azərbaycanın və Portuqaliyanın bu sahədə birgə əməkdaşlığı üçün yaxşı perspektivlərin olduğunu qeyd edib.

## Ədliyyə naziri Şamaxıda vətəndaşları qəbul edib



Azərbaycan Prezidenti İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması barədə tapşırıqlarına uyğun olaraq Ədliyyə Nazirliyi tərəfindən vətəndaşların bölgələrdə qəbuluna xüsusi diqqət yetirilir. Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, yanvarın 30-da ədliyyə naziri Fikrət Məmmədov Şamaxı rayonundakı Heydər Əliyev Mərkəzində Şamaxı, İsmayıllı və Qobustan rayonlarından olan vətəndaşların qəbulunu keçirib.

Qəbuldan əvvəl nazir Fikrət Məmmədov və Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Asif Ağayev ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri qoyub, əziz xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Qəbul zamanı hər bir vətəndaş diqqətlə dinlənilib, müraciətlərdə qaldırılan məsələlərin bir qismi elə yerində öz həllini tapıb, digər müraciətlər üzrə nazirliyin qəbulda iştirak edən aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib. Vətəndaşlar bölgə sakinlərinin qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Səfər zamanı ədliyyə naziri, həmçinin yerli ədliyyə və məhkəmə orqanlarının fəaliyyəti və iş şəraiti ilə tanış olub, ədliyyə işçiləri və hakimlərlə müşavirə keçirib. Müşavirədə ədliyyə və məhkəmə fəaliyyətində şəffaflığın, vətəndaş məmnunluğunun təmin olunması, korrupsiyaya şərait yaradan halların yolverilməzliyi qeyd olunub, məhkəmə qərarlarının icrası işinin yaxşılaşdırılması, probasiya xidmətinin fəaliyyətinin təşkili ilə bağlı tapşırıqlar verilib, ədalət mühakiməsinin səmərəliliyinin artırılması, cəza siyasətinin humanistləşdirilməsi ilə bağlı dövlətimizin başçısının tapşırıqlarından və qanunvericiliyə edilmiş dəyişikliklərdən irəli gələn vəzifələrə toxunulub.

# Bakı universal platformaya ev sahibliyi edəcək ən gözəl məkandır

Bütün dünyada müxtəlif sahələrə aid mötəbər beynəlxalq tədbirlərin və idman yarışlarının yüksək səviyyədə keçirildiyi ölkə kimi tanınan Azərbaycan, artıq bu baxımdan əlverişli ölkəyə çevrilib. Müxtəlif dinlərə və etnik mənşəyə mənsub olan insanlar arasında multikulturalizm və qarşılıqlı hörmət ənənələri ilə zəngin olan Azərbaycanda belə tədbirlərin keçirilməsi məqsədəuyğundur. Azərbaycanın paytaxtı Bakının "Expo-2025" Ümumdünya Sərgisinə namizəd şəhər kimi irəli sürülməsi ölkəmizin mövcud imkanlarının və təcrübəsinin göstəricisidir. Son illərdə Azərbaycanda keçirilən beynəlxalq səviyyəli tədbirlər dünyanın nüfuzlu beynəlxalq təşkilatları tərəfindən yüksək qiymətləndirilir. Bu tədbirlər siyasi və iqtisadi sabitliyə, maliyyə imkanlarına və yüksək səviyyəli təhlükəsizliyə malik olan ölkəmizdə keçirilir. Münaqişəyə, yeni siyasi sistemə və bazar iqtisadiyyatına keçidin yaratdığı əlavə çağırışlara baxmayaraq, Azərbaycanın uğurlu inkişaf strategiyasını tətbiq edərək, zəruri siyasi və iqtisadi islahatları həyata keçirə bildiyini vurğulayan Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva siyasi, iqtisadi və sosial sabitliyin uğurlu inkişafımızın möhkəm təməlini təşkil etdiyini qeyd edir. Əbəs yerə deyil ki, 2009-cu ildə Azərbaycan Dünya Bankı tərəfindən "Dünyanın aparıcı islahatçı ölkəsi" kimi qiymətləndirildi. Dünya İqtisadi Forumunun "2017-2018 Qlobal Rəqabətlilik İndeksi" Azərbaycanı 137 ölkə arasında 35-ci yerə layiq gördü.




2000-ci ildən etibarən "Expo" hərəkatının fəal üzvü olan Azərbaycan Bakının "Expo-2025" Ümumdünya Sərgisinə namizədliyinin irəli sürülməsinin bir çox şərtləndirici məqamları var. Ölkəmizin iqtisadi inkişafı, sabitliyin hökm sürməsi, yüksək səviyyədə təşkilatçılıq səviyyəsi ilə yanaşı, ölkəmizin indiyədək iştirak etdiyi bütün beynəlxalq sərgilərdəki pavilyonları və stendlərinin təşkilatçılar və iştirakçılar tərəfindən yüksək qiymətləndirilməsi və s. bu amillər sırasındadır. Belə ki, Azərbaycan pavilyonları 2015-ci ildə üç milyondan çox insanın ziyarət etdiyi Milanda, 2016-cı ildə Antalyada və 2017-ci ildə isə Astanada mükafatlar qazanıb. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Xanım Əliyeva Beynəlxalq Sərgilər Bürosunun işinə sadə töhfəmizin bu cür qiymətləndirilməsindən qürur duyduğumuzu ifadə edib: "Ümumdünya sərgisi bütün mədəniyyətlərə bərabərlik və hörmət prinsipinə əsaslanan müxtəlifliyi sərgiləmək üçün bir platformadır. Bu sərgilər qlobal müzakirələr və əməkdaşlıq üçün bütün beynəlxalq ictimaiyyəti nadir bir məkanda bir araya gətirir". Mehriban xanım Əliyeva Bakının "Expo-2025" Ümumdünya Sərgisinə - bu universal platformaya ev sahibliyi etmək üçün ən yaxşı məkanlardan biri olduğunu vurğulayıb. Bəli, beynəlxalq səviyyəli tədbirləri keçirməkdə zəngin təcrübəyə malik olan Azərbaycan "Expo-2025"in keçiriləcəyi məkan kimi seçilsə, heç şübhəsiz ki, bu tədbirin də yüksək hazırlığı ilə yadda qalacağına əminlik yaratmış olur.

Artıq Bakı şəhərinin "Expo-2025" Ümumdünya Sərgisinə namizədliyi ilə bağlı dünya ölkələrində təqdimatlar keçirilir. Təqdimatlarda Bakı şəhərinin "Expo-2025" Ümumdünya ev sərgisinə namizədliyi, bu istiqamətdə görülmüş və həyata keçiriləcək işlər barədə məlumat verilir. Azərbaycanın "Expo-2025" üçün təklif etdiyi "İnsan kapitalını inkişaf etdirək, daha yaxşı gələcək quraq" mövzusunun bəşəriyyət üçün aktual olduğu və beynəlxalq inkişaf gündəliyinə, xüsusilə də, BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri ilə uzlaşdığı diqqətə çatdırılır. Bu sərgi beynəlxalq inkişaf gündəliyində duran qlobal məsələlərinin müzakirəsi üçün universal platforma rolunu oynayacaq və bəşəri müxtəlifliyi təmin edərək, bütün millətlərə iştirak etmək imkanı yaradacaqdır.

Bu günlərdə isə Dünya İqtisadi Forumunun keçirildiyi Davosda "Expo-2025" Ümumdünya Sərgisinə Bakının namizədliyi ilə bağlı təqdimat mərasimi keçirilib. Qeyd edək ki, Bakının təklif etdiyi "İnsan kapitalını inkişaf etdirək, daha yaxşı gələcək quraq" mövzusu builki Dünya İqtisadi Forumunun "Pərakəndə dünyada ümumi gələcəyin qurulması" mövzusu ilə geniş mənada, üst-üstə düşür. Dünya İqtisadi Forumu kimi Ümumdünya Expo Sərgisi də müzakirə və ideya mübadiləsi məqsədilə dünyanı bir araya gətirən vacib mexanizmdir.

Azərbaycanın "Expo-2025" Ümumdünya Sərgisinə ev sahibliyi etmək niyyəti ölkəmizin milli inkişaf strategiyasından irəli gəlir. Bu sərgiyə ev sahibliyi etməsi ilə Azərbaycan öz iqtisadiyyatının, təhsil, səhiyyə və iş sektoruna yatırılan sərmayələr nəticəsində, insan kapitalının daha da gücləndirilməsinə nail olacaq. "İnsan kapitalının inkişaf etdirilməsi, daha yaxşı gələcəyin qurulması" mövzusu, həqiqətən, hamını narahat edən bir məsələdir. Azərbaycanın Birinci vitse-prezidenti biz insanları - dünyada ən güclü resurs olan insan kapitalını universal müzakirəyə çıxaracağını vurğulayıb: "Bakıda keçiriləcək Ümumdünya Sərgisi Beynəlxalq Sərgilər Bürosuna yeni bazarda yeni auditoriya ilə təmasa girmək imkanı verəcək. Bu sərgi yeni bölgədə və yeni dövrdə yeni bir tarix yazmaq imkanı yaradacaq. Bu sərgi, həmçinin, Azərbaycan xalqına bizim Beynəlxalq Sərgilər Bürosunun mümkün olan ən yaxşı tərəfdaşlarından biri ola biləcəyini nümayiş etdirmək fürsətini verəcək".

***Nəzakət ƏLƏDDİNQIZI***

# Şirvanda “Azərbaycanın dövlət-din modeli: əsas istiqamətlər” mövzusunda regional konfrans keçirilib




***Ölkəmizdə dini durumun sabitliyinin qorunması, dini dözümlülük ənənələrinin qorunub saxlanılması və radikal meyillərin qarşısının alınması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Bu fikir yanvarın 30-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Şirvan Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə “Azərbaycanın dövlət-din modeli: əsas istiqamətlər” mövzusunda keçirilən regional konfransda səsləndirilib.***



Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, yerli hüquq mühafizə orqanları rəhbərlərinin, YAP Şirvan şəhər təşkilatı fəallarının, dini icma sədrlərinin, din xadimlərinin, ilahiyyatçıların və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi konfransı Şirvan Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Samid Abıyev açıb. İcra hakimiyyəti başçısının birinci müavini ölkəmizdə tolerantlıq və multikulturalizm siyasətinin bugünkü inkişaf mərhələsinə gəlib çatmasında ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin yorulmaz fəaliyyətindən söz açıb.

Şirvandakı sabit dini durum barədə məlumat verən S.Abıyev dini maarifləndirmə tədbirlərinin, dini radikalizmin fəsadlarından bəhs edən sənədli filmlərin nümayişinin əhəmiyyətindən də danışıb.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxışında bu ilin Prezident İlham Əliyev tərəfindən “Azərbaycan Xalq Cümhuriyyət İli” elan edilməsinin önəminə toxunub, müstəqil Azərbaycan Respublikasının 1918-ci ildə yaradılmış Xalq Cümhuriyyətinin siyasi varisi olduğunu bildirib. Dövlət Komitəsinin sədri qeyd edib ki, Prezident İlham Əliyev tərəfindən atılan bu mühüm addım, eyni zamanda, Xalq Cümhuriyyəti dövründə dövlət-din münasibətlərinin tarixinə nəzər salmağımıza səbəb olur. Bugünkü nümunəvi dövlət-din modelimiz bizim tariximizə, ənənələrimizə əsaslanır. Sovetlər dövründə dinə qarşı təzyiqlər edilsə də, xalqımız dini-mənəvi dəyərlərə sadiqliyini qoruyub saxlaya bilib.

Mübariz Qurbanlı vurğulayıb ki, müstəqilliyimizin bərpasından sonra dövlət-din münasibətləri, ayrı-ayrı etnoslar arasında əlaqələr, hər bir xalqın mədəni-mənəvi dəyərlərinin öyrənilməsi və təbliği yeni keyfiyyət mərhələsinə qaldırılıb. Nümunəvi siyasətin bu gün yeni formada özünü göstərdiyini deyən Komitə sədri Prezidentimizin dinə qayğısının təzahürü olaraq, 2016-cı ili ölkəmizdə “Multikulturalizm İli”, 2017-ci ili “İslam Həmrəyliyi İli” elan etdiyini, ötən ilin oktyabr ayında Mənəvi Dəyərlərin Təbliği Fondunun təsis edilməsi haqqında Fərman imzaladığını diqqətə çatdırıb. Bildirib ki, Fondun nizamnaməsində milli mənəvi dəyərlərimizin təbliği əsas istiqamət təşkil edir.

Dövlət Komitəsinin sədri müasir dövrdə bir sıra siyasi mərkəz və dairələrin, eləcə də bəzi ölkələrin münasibətlərində ikili standartların üstünlük təşkil etdiyini diqqətə çatdırıb, buna görə də humanist dəyərlərin arxa plana keçməsinin heç kəsə sirr olmadığını, din adı altında müxtəlif zərərli qrupların fəaliyyət göstərdiyini bildirib. M.Qurbanlı həmin qrupların dinin əsas fundamental dəyərlərindən kənara çıxaraq, zərərli təşviqatlar aparmaqla insanları din adı altında başqa məqsədlərə yönəltdiyini, onları silahlı münaqişələrə cəlb etdiyini, digər mədəniyyətlərə və dinlərə qarşı qoyduğunu vurğulayıb. Qeyd edib ki, belə bir məqamda milli mənəvi və islami dəyərlərimizin qorunub-saxlanılmasına və təşviqinə böyük ehtiyac var.

Qafqaz Müsəlmanları İdarəsinin bölgə qazısı Hüsni Həsənov çıxışında dinə dövlət qayğısından bəhs edib. O, müstəqillik dövründə dini ibadətgahların inşa və təmir edilərək yenidən xalqın ixtiyarına verildiyini bildirib. H.Həsənov din xadimlərinin fəaliyyəti üçün hər cür şəraitin yaradıldığını, dövlət tərəfindən mütəmadi olaraq dini sahəyə maliyyə vəsaitinin ayrıldığını deyib.

Konfransın ikinci hissəsi “Dini radikalizmlə mübarizə və maarifləndirmə” mövzusunda panellə davam edib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov, Şirvan Şəhər İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı Adəm Hüseynov, DQİDK-nın Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdir müavini Ruslan Əsgərov, Şirvan Gənclər Evinin direktoru Əfqan Həsənov çıxış ediblər. Çıxışlarda dini radikalizmə qarşı mübarizə, cəmiyyətin, xüsusən gənclərin zərərli dini cərəyanların təsiri altına düşməsinin, din adı altında milli və dövlət maraqlarımıza zidd, milli mənəvi dəyərlərimizə yad ideoloji təlimlərin yayılmasının qarşısının alınmasında dini maarifləndirmənin rolu və önəmi kimi məsələlərə toxunulub.

# “Jewish Journal” nəşrində “Holokostu xatırlayarkən: Azərbaycan haqqında düşüncələr” sərlövhəli məqalə dərc edilib




Amerikada çıxan “Jewish Journal” qəzetində Azərbaycan Dağ Yəhudiləri İcmasının başçısı Milix Yevdayevin “Holokostu xatırlayarkən: Azərbaycan haqqında düşüncələr” sərlövhəli məqaləsi dərc edilib.

Müəllif yanvarın 27-sinin Holokost qurbanlarının Beynəlxalq Anım Günü olmasını vurğulayaraq yazır ki, Holokost və İkinci Dünya müharibəsi bəşəriyyət tarixində çox böyük faciədir.

AZƏRTAC xəbər verir ki, M.Yevdayevin sözlərinə görə, İkinci Dünya müharibəsi dövründə Azərbaycanın orta hesabla hər altı sakinindən biri nasistlərə qarşı vuruşlarda həlak olub, o cümlədən 400 minə yaxın azərbaycanlı nasizmin qurbanı olub. Həmişə tolerantlıq mərkəzi kimi fərqlənən Azərbaycan İkinci Dünya müharibəsi dövründə yəhudilərə sığınacaq verib. Hitler Azərbaycanın zəngin təbii ehtiyatlarını, xüsusən neft və qaz yataqlarını ələ keçirmək üçün Bakını tutmaq istəyirdi. Ona görə də Hitlerin bu niyyətini həyata keçirə bilməməsi üçün böyük səylər sayəsində Stalinqradda nasistlərin yolu kəsildi.

Yevdayev Holokost qurbanlarını yad etməklə bərabər Azərbaycanın Xocalı şəhərindən olan məcburi köçkün Anar Usubov haqqında da yazır. Azərbaycan Yəhudilər İcmasının başçısı qeyd edir ki, Anarın mənsub olduğu böyük ailənin 25 üzvü 1992-ci il Xocalı qırğını zamanı erməni silahlıları tərəfindən vəhşicəsinə qətlə yetirilib. Müəllif yazır ki, Anarın babası Şahhüseyn Holokost zamanı neçə-neçə yəhudini xilas etmiş qəhrəman olub. Usubovlar azərbaycanlı, müsəlmandırlar. Bu fakt yəhudiləri ölümün pəncəsindən xilas etmiş Şahhüseynin qəhrəmancasına hərəkətlərində xüsusi rol oynayıb. Şahhüseyn sovet hərbi əsiri kimi Osventsim cəza düşərgəsində saxlanılırdı. Onun düşərgəyə gətirildiyi gün orada dəhşətli bir seçim aparılırdı: yəhudiləri qırmaq üçün başqalarından ayırırdılar. Şahhüseyn başa düşdü ki, nasistlər yəhudiləri müsəlmanlardan ayırmaq məqsədlə Quran ayələrini əzbər demələrini tələb edirdilər. Şahhüseyn yəhudiləri xilas etmək məqsədilə qısa müddətdə onlara Quran ayələri öyrədir. Bir müddətdən sonra nasistlər Şahhüseynin bu planını başa düşür və onu döyərək ölümcül vəziyyətə salırlar. Məhz bu insanın mərdliyi sayəsində həmin gün Osventsimdəki yəhudilərin çoxu salamat qalır.

Müəllif sonda yazır ki, Azərbaycanda Şahhüseyn kimi insanlar çoxdur, bu ölkədə yəhudiləri əsrlərboyu müdafiə ediblər.

# Milli Televiziya və Radio Şurasının növbəti iclası keçirilib

Yanvarın 30-da Milli Televiziya və Radio Şurasının növbəti iclası keçirilib. Şuradan AZƏRTAC-a bildiriblər ki, iclasda Azərbaycanda özəl ümumölkə teleradio yayımçılarına birdəfəlik maliyyə yardımı göstərilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 yanvar tarixli Sərəncamına əsasən ölkəmizdə fəaliyyət göstərən özəl ümumölkə teleradio yayımçılarının “Azerspace-1” peyki və digər vasitələrlə yayım həyata keçirməsinə əlavə dəstək verilməsi məqsədilə 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Milli Televiziya və Radio Şurasına ayrılmış üç milyon manat vəsaitdən hər bir özəl ümumrespublika televiziya yayımçısına (“Lider TV”, “Xəzər TV”, “ATV”, “ARB TV”, “Space TV”) altı yüz min manat ayrılması barədə qərar qəbul edilib.

İclasda, həmçinin “Avto FM” radiosunun ölkə ərazisində genişmiqyaslı yayımının təmin olunması üçün ona yeni tezliklərin ayrılması və “Azerspace-1” peykindən yayımına icazə verilməsi ilə bağlı qərar qəbul olunub.

# Parlamentlərarası İttifaq Azərbaycan ilə əməkdaşlığı inkişaf etdirməkdə maraqlıdır



Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Parlamentlərarası İttifaqda “12 Plyus Geosiyasi Qrupu”nun katibi, portuqaliyalı deputat Duarte Paçeko ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycanla Parlamentlərarası İttifaq arasında əməkdaşlığın müxtəlif istiqamətləri üzrə fikir mübadiləsi aparılıb və müasir dövrdə parlament diplomatiyasının rolu vurğulanıb.

Nazir Elmar Məmmədyarov Azərbaycanın MDB, Avropa Şurası və digər beynəlxalq təşkilatların parlament assambleyaları ilə uğurlu əməkdaşlığını qeyd edib. Duarte Paçeko təmsil etdiyi qurumun Azərbaycan ilə əməkdaşlığı inkişaf etdirməkdə maraqlı olduğunu bildirib. O, Azərbaycan ilə Parlamentlərarası İttifaq arasında əlaqələrin möhkəmlənməsində səylərini əsirgəməyəcəyini diqqətə çatdırıb.

# Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Şirvanda vətəndaşları qəbul edib

***Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2018-ci il üçün şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, yanvarın 30-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı Şirvan şəhərində bölgə vətəndaşlarını qəbul edib.***



DQİDK-dən AZƏRTAC-a bildiriblər ki, qəbuldan öncə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və Şirvan Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Samid Abıyev ümummilli lider Heydər Əliyevin şəhərin mərkəzində yerləşən abidəsi önünə tər gül dəstələri qoyub, Ulu Öndərin əziz xatirəsini ehtiramla anıblar.

Şirvan şəhər Heydər Əliyev Mərkəzində keçirilən qəbulda Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Salyan, Şirvan, Neftçala, Biləsuvar və Hacıqabul rayonlarından olan sakinlərin müraciətlərinə baxıb. Vətəndaşlar əsasən dini icmaların fəaliyyəti, onların dövlət qeydiyyatına alınması, məscidlərin təmiri, dini maarifləndirmə ilə əlaqədar icmalara vəsaitlərin ayrılması, məscidlərin dini təyinatlı kitablarla təmin edilməsi və digər məsələlərlə bağlı müraciət ediblər.

Müraciətlərin bir qismi yerindəcə öz həllini tapıb. Araşdırılmasına ehtiyac olan bir sıra məsələlərin qanunvericiliyə uyğun, operativ həlli üçün müvafiq tapşırıqlar verilib.

# Milli Məclisdə “Qlobal çağırışlar və öhdəliklər: Azərbaycanda vərəmlə mübarizə” mövzusunda dinləmələr keçirilib

***Yanvarın 30-da Milli Məclisin səhiyyə komitəsinin iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclas çərçivəsində “Qlobal çağırışlar və öhdəliklər: Azərbaycanda vərəmlə mübarizə” mövzusunda dinləmələr olub. Komitənin sədri Əhliman Əmiraslanov tədbirin keçirilməsinə verdiyi dəstəyə görə Milli Məclisin rəhbərliyinə təşəkkürünü bildirib. O deyib ki, vərəm xəstəliyi müalicə olunmadıqda əlillik və ölümlə nəticələndiyi üçün bir sosial bəla kimi həm dövlətin, həm də bütövlükdə cəmiyyətin problemi hesab olunur.***



Dünya Səhiyyə Təşkilatının statistik məlumatına əsasən, dünyada il ərzində 9 milyondan artıq insan bu xəstəliyə tutulur və 1,8 milyon insan həmin xəstəlikdən vəfat edir. Bu səbəbdən vərəm problemi dünya səhiyyə sisteminin qlobal problemi olaraq cəmiyyətin sağlam inkişafına təhlükə yaradır. Müalicə olunmayan bir vərəm xəstəsi bir ildə 10-15 insanda bu xəstəliyin yaranmasına səbəb olur. Hesablamalara görə, 2015-ci ildə dünyada 10,4 milyon insan vərəm xəstəliyinə tutulub. Vərəm dünya üzrə 10 ən çox ölümə səbəb olan xəstəliklərin siyahısındadır. 2015-ci ildə dünyada 1 milyon uşaq vərəm xəstəliyinə yoluxub, 210 min uşaq vərəmdən dünyasını dəyişib. Vərəm dünyanın bütün bölgələrində yayılıb, lakin ölüm hallarının çoxu Asiyanın və Afrikanın payına düşür. Dünyada 2000-2015-ci illər ərzində 49 milyon insan vərəmdən müalicə alıb və onların həyatı xilas edilib. Lakin aşkarlanma və müalicə sahəsində hələ də xeyli problemlər mövcuddur. Azərbaycanda isə son beş ildə xəstəliyə yoluxmanın dinamikasında müsbət dəyişikliklər - azalma müşahidə olunur. Penitensiar sistemdə 1993-cü illə müqayisədə ölüm halları 105 dəfə azalıb. Son illərdə dünya üzrə vərəm epidemiyasının stabilləşməsi meyilləri müşahidə edilməkdədir. Lakin buna baxmayaraq, son illərdə vərəmin mövcud dərman preparatlarına davamlı olan yeni forması yayılmağa başlayıb. 93 ölkədə bu forma qeydə alınıb. Vərəmin bu forması daha çətin və uzunmüddətli müalicə tələb edir.

Dinləmələrdə məruzə ilə çıxış edən komitə üzvləri Sədaqət Vəliyeva və Məlahət İbrahimqızı Azərbaycanda vərəmlə mübarizə sahəsində görülən işlər, qəbul edilən sənədlər və qarşıda dayanan vəzifələr barədə məlumat veriblər. Bu xəstəliyin kökünün kəsilməsi üçün bölgələrdə maarifləndirmə işlərinin aparılmasının vacibliyi vurğulanıb.

İclasda çıxış edən Milli Məclisin əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli və ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlı dinləmələri yüksək qiymətləndiriblər. Qeyd olunub ki, bu xəstəliyin qarşısının alınması onun nəticələrini aradan qaldırmaqdan asandır. Bunun üçün təkcə həkimlər yox, vətəndaşlar özləri də diqqətli olmalıdırlar. Təklif olunub ki, nikaha daxil olan vətəndaşlardan müayinəsi tələb olunan xəstəliklərin siyahısına vərəmin müayinəsi də əlavə edilsin.

Dinləmələrdə çıxış edən deputatlar Musa Quliyev, Qənirə Paşayeva, Rəşad Mahmudov, Kamilə Əliyeva, Səhiyyə Nazirliyinin, Ədliyyə Nazirliyinin nümayəndələri, tibb mütəxəssisləri vərəmlə mübarizə barədə fikirlərini bildirib, təkliflərini veriblər. Çıxışlarda Azərbaycanda vərəm xəstəliyi ilə bağlı qeydiyyatdan yayınmaya görə məsuliyyətin müəyyənləşdirilməsinin vacibliyi vurğulanıb. Qeyd olunub ki, həkimlər xəstələri rəsmi qeydiyyata saldırmadan müalicə etməməlidirlər.

Dinləmələrə yekun vuran səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov aparılan müzakirələrin faydalı olduğunu qeyd edib. Bildirib ki, komitə bununla bağlı qanunvericiliyə dair veriləcək təklifləri müzakirəyə hazırdır.

Sonra iclasda “Sanitariya-epidemioloji salamatlıq haqqında” Qanuna təklif olunan dəyişikliklər müzakirəyə çıxarılıb. Məsələ barədə məlumat verən Milli Məclis Aparatının sosial qanunvericilik şöbəsinin müdir müavini Mehdi Qurbanov bildirib ki, təklif olunan dəyişikliklər Prezidentin “Azərbaycan Respublikasında qida təhlükəsizliyi sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” 2017-ci il 10 fevral tarixli Fərmanına əsasən hazırlanıb və müvafiq qanunvericiliyin daha da təkmilləşdirilməsinə xidmət edir. Deputatlar “Sanitariya-epidemioloji salamatlıq haqqında” Qanuna təklif olunan dəyişiklikləri yüksək qiymətləndiriblər və layihəni Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə ediblər.

# Hikmət Babaoğlu: “Azərbaycan iqtisadiyyatı yeni regional mərkəzlərin yaradılması ilə növbəti keyfiyyət mərhələsinə qədəm qoyub”



Azərbaycan iqtisadiyyatı hazırda yeni regional iqtisadi mərkəzlərin yaradılması ilə növbəti keyfiyyət mərhələsinə qədəm qoyub. Bu fikri AZƏRTAC-a açıqlamasında “Yeni Azərbaycan” qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Hikmət Babaoğlu deyib.

Hikmət Babaoğlu bildirib ki, Azərbaycan regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının dördüncü ilinin yekunlarına həsr olunmuş konfransda Prezident İlham Əliyev 2004-2017-ci illərdə ölkəmizin sosial-iqtisadi inkişafının mühüm göstəricilərinə toxunaraq inkişafın sürətlə getdiyini diqqətə çatdırdı. Hələ 2003-cü ildə dövlətimizin başçısı qeyd etmişdi ki, Azərbaycan təkcə Bakıdan və Abşeron yarımadasından ibarət deyil, Azərbaycanın bütün regionları inkişaf etməlidir. Doğrudan da iqtisadiyyatın rəqabət qabiliyyətli olması və bütün milli resursların iqtisadi inkişafa cəlb edilməsi baxımından regionların sosial-iqtisadi inkişafı xüsusi əhəmiyyət kəsb edir. Bu gün milli iqtisadiyyatımızın hazırkı mərhələsində inkişaf göstəricilərinin təmin olunması prosesində regionların sürətlə irəli getdiyini deyən Milli Məclisin deputatı əhalinin sosial rifah halının yüksəlməsində həyata keçirilən xüsusi dövlət proqramlarının mühüm rol oynadığını bildirib.

Müsahibimiz qeyd edib ki, regionların inkişafı və sosial-iqtisadi münasibətlərin regional xarakterə uyğun olaraq tənzimlənməsi bütövlükdə iqtisadiyyatımızı rəqabət qabiliyyətli etməklə bərabər, iqtisadi proporsionallığı da qoruyan mühüm amildir. Ötən illər ərzində dövlətimizin başçısının, ilk növbədə, regionlarda həyata keçirilən sosial layihələri önə çəkməklə Azərbaycanın sosial dövlət kimi öz öhdəliklərinə sadiq qaldığını vurğulayan Hikmət Babaoğlu bildirib ki, Azərbaycanda bir milyondan çox qaçqın və məcburi köçkün var, ancaq dövlətinin sosial siyasətinin ən mühüm prioriteti onların iş və mənzillə təmin olunmasıdır. Son 17 ildə görülən işləri mühüm tarixi hadisə kimi qiymətləndirən deputat vurğulayıb ki, Prezident tərəfindən bu günə qədər 265 min köçkün ailəsinə yeni evlər verilib. 2018-ci ildə yenə 20 min köçkün ailəsi yeni evlərlə təmin ediləcək. Bu, Azərbaycanda sosial təminatı zəif olan təbəqəyə qarşı münasibətin göstəricisi olmaqla bərabər, həm də qaçqın və məcburi köçkünlərin problemlərinin həllinin daim diqqətdə olduğunu göstərir.

Hikmət Babaoğlu deyib ki, ötən illər ərzində ölkəmizdə məşğulluğun təmin olunması ilə bağlı çox böyük işlər görülüb və ailə biznesinin inkişafı üçün xüsusi layihələr həyata keçirilib. Bu da regionların iqtisadi inkişafına öz töhfəsini verib. Bu layihələr çərçivəsində “Ailə Biznesinə Asan Dəstək” - “ABAD”-ı qeyd etmək olar. Bu cür sosial layihələr çərçivəsində vətəndaşların şəxsi biznesini qurmaq üçün kreditlər verilir, bu da həm məşğulluğun artırılmasına, həm də regionların inkişafına hesablanmış bir işdir.

Eyni zamanda, bütün regionların enerji ilə təchizatının həyata keçirilməsi, qazlaşdırma işlərinin aparılması, yolların çəkilməsi, kəndarası yolların inşa olunması və regionların iqtisadi xüsusiyyətlərinə görə müvafiq iqtisadi rayonlaşmanın aparılması da ötən illər ərzində görülən ən mühüm tədbirlər sırasındadır.

“Yeni Azərbaycan” qəzetinin baş redaktoru, həmçinin qeyd edib ki, Azərbaycanda 18 iqtisadi rayon var və hər bir iqtisadi rayonun özünün ixtisaslaşmış sahələri var. Regional iqtisadiyyat qurulan yerli xüsusiyyətlər nəzərə alınmaqla ixtisaslaşma aparılıb. Bu da iqtisadi rayonların əmək qüvvələri və istehsal münasibətlərinin mütənasibliyini təmin etməklə regionlardakı inkişafı daha da sürətləndirib. Buna paralel olaraq, istehsal olunan malların ixracının təmin edilməsi ilə bağlı xüsusi layihələr həyata keçirilir. Ayrı-ayrı iqtisadi rayonlar və istehsal olunan malların bazara çıxarılması ilə bağlı dövlət tərəfindən tədbirlər görülür.

Milli Məclisin deputatı qeyd edib ki, Bakı-Tbilisi-Qars dəmir yolunun açılması yeni kommunikasiya və nəqliyyat körpüsü yaratmaqla, Azərbaycana yeni bazarlar qazandırır. Ona görə də bu proses çərçivəsində həyata keçirilən tədbirlər də ölkəmizə əlavə yatırımlar cəlb edir, eyni zamanda, ölkə istehsalçılarının mallarını bazara çıxarmaları üçün onun daşınma xərclərini azaltmaqla rəqabət qabiliyyətliyini artırır. Prezident İlham Əliyev konfransda qeyd etdi ki, ötən 14 il ərzində Azərbaycan iqtisadiyyatına 231 milyard dollar həcmində sərmayə qoyulub. Bu rəqəm öz-özlüyündə Azərbaycanda necə mühüm və sabit sərmayə mühitinin olduğunu göstərir.

Hikmət Babaoğlu qeyd edib ki, bu proses xarici və daxili investorları Azərbaycanın regionlarına cəlb edən əsas məsələlərdən biridir. Dövlətimizin başçısı bildirdi ki, son 14 ildə Azərbaycanda 12 min 300 kilometr yol, 443 körpü tikilib. Bu, əlbəttə ki, Azərbaycanın inkişafını daha da sürətləndirməklə onu dayanıqlı və uzunmüddətli edəcək. Bunların hamısının arxasında Azərbaycan Prezidentinin regionların inkişafı ilə bağlı həyata keçirdiyi xüsusi proqram dayanır.

Azərbaycanın yeni regional iqtisadi mərkəzlərin yaradılması ilə növbəti inkişaf mərhələsinə qədəm qoyduğunu deyən Milli Məclisin deputatı 2018-ci il ildə də ölkə iqtisadiyyatının davamlı tərəqqisinin təmin ediləcəyini, vətəndaşların sosial rifahının daha da yaxşılaşdırılacağını vurğulayıb.

# Mədəniyyət və turizm naziri Xırdalan şəhərində vətəndaşlarla görüşüb

***Yanvarın 30-da mədəniyyət və turizm naziri Əbülfəs Qarayev Xırdalan şəhərində vətəndaşlarla görüşüb. AZƏRTAC xəbər verir ki, nazir Xırdalan şəhərindəki Heydər Əliyev Mərkəzində Sumqayıt şəhəri, Abşeron, Xızı, Qubadlı, Şuşa və Zəngilan rayonlarının sakinlərini qəbul edib. Görüşdən öncə nazir Əbülfəs Qarayev və Abşeron Rayon İcra Hakimiyyətinin başçısı İradə Gülməmmədova ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstəsi qoyaraq xatirəsini ehtiramla anıblar. Qəbulda vətəndaşların müxtəlif məsələlərlə bağlı müraciətləri səslənib.***



Sumqayıt sakinləri şəhərdəki Heydər Əliyev Mərkəzində ödənişli xidmətlərin göstərilməsi, “Kimyaçı” mədəniyyət sarayının nəzdində filarmoniyanın yaradılması, beynəlxalq dekorativ sənət ustalarının festivalının keçirilməsi, istedadlı gənclərin yaradıcılığının dəstəklənməsi və stimullaşdırılması məqsədilə auksion mərkəzinin təşkili, regionda fəaliyyət göstərən turizm obyektləri haqqında məlumat bazasının yaradılmasını xahiş ediblər.

Abşeron rayonundan qəbula yazılan vətəndaşların müraciətləri ümummilli lider Heydər Əliyevin 95 illik yubileyi ilə bağlı film çəkilişlərinə kömək göstərilməsi, tanınmış kino aktyoru Bahadır Əliyevin 85 illik yubileyinin keçirilməsi, mərkəzi kitabxana üçün yeni binanın tikilməsi və işlə təminat barədə olub.

Xızı sakinləri rayonda turizmyönümlü peşə məktəbinin yaradılması, rayonda fəaliyyət göstərən uşaq musiqi məktəbinin filialının açılması və digər məsələlərlə bağlı müraciət ediblər. Qubadlı sakinlərinin xahişləri musiqi məktəbinə musiqi alətlərinin verilməsi, Sumqayıt şəhərində məcburi köçkünlər üçün tikilən çoxmərtəbəli binaların birinci mərtəbəsində muzey üçün yerin ayrılmasına kömək göstərilməsi barədə olub.

Şuşa sakinləri tərəfindən “Şuşanın dağları” ansamblına xalq kollektivi adının verilməsi, musiqi alətləri ustası Musa Yaqubovun hazırladığı alətlərin təbliği, eləcə də işlə təmin olunma ilə bağlı xahişlər edilib. Nazir Zəngilan rayonlarının sakinlərinin işlə təmin olunma və digər məsələlərlə bağlı müraciətlərini də dinləyib. Qəbulda vətəndaşların müraciətlərinin bir qismi həllini tapıb, digər məsələlər araşdırılması üçün nəzarətə götürülüb və lazımi tədbirlərin görülməsi ilə bağlı tapşırıqlar verilib.

Əbülfəs Qarayev jurnalistlərə müsahibəsində dövlətimizin başçısının tapşırığı ilə müntəzəm olaraq keçirilən bu cür görüşlərin əhəmiyyətini diqqətə çatdıraraq deyib: “Bildiyiniz kimi, hər ay ölkəmizin müxtəlif bölgələrində vətəndaşlarla görüşlər keçirilir. Onlar tərəfindən maraqlı təkliflər, müraciətlər səsləndirilir. Belə görüşlər ümumi işimizə, fəaliyyətimizə öz təsirini göstərir. Bugünkü qəbulda da bir sıra maraqlı təkliflər səsləndirildi. Sumqayıt şəhərində əl işləri festivalının keçirilməsi, musiqi məktəblərində yeni tədris sisteminin, kitabxanalarda yeni texnologiyaların tətbiqi kimi məsələlər diqqətə çatdırıldı”.

Regionlarda turizmin inkişaf etdirilməsinin dövlət başçısının daim diqqət mərkəzində olduğunu deyən Əbülfəs Qarayev bütün qəbullarda bununla bağlı səslənən təkliflərin nəzərdən keçirildiyini bildirib: “Çox sevindirici haldır ki, Sumqayıt və Abşeron bölgəsi artıq turizm baxımından əlverişli məkana çevrilir. Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu iqtisadi siyasət nəticəsində ölkəmizdə nəqliyyat sisteminin təkmilləşdirilməsi, turizm sənayesinin inkişafı və digər lazımi infrastrukturun yaradılması təmin olunub. Mədəniyyət və Turizm Nazirliyi tərəfindən bu bölgədə turizm zonasının yaradılması istiqamətində iş aparılır. Xarici mütəxəssislər cəlb olunub, müvafiq layihə hazırlanmaqdadır. Layihənin yay aylarına qədər hazır olması nəzərdə tutulur”.

## Bəhruz Quliyev: “İnkişaf və tərəqqimizin əsasında lider-xalq birliyi və qətiyyəti dayanır”



Bu gün, digər ölkələrdən fərqli olaraq Azərbaycanda təhlükəsizlik, sabtlik və sakitlik hökm sürür, bunun isə arxasında dayanan əsas faktor məhz lider-xalq vəhdəti, o cümlədən, xalqın iradəsidir. Bu fikirləri Trend-ə ekspert Bəhruz Quliyev “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının dördüncü ilinin yekunlarına həsr olunan konfransda irəli sürülən fikirlərə münasibətini bildirərkən deyib. Ekspert qeyd edib ki, əgər lider və xalq birliyi mövcud olmasa, hər hansı bir inkişafdan, tərəqqidən danışmaq olmaz. Bunun isə təməli hələ 1993-cü ildə bilavasitə Azərbaycan xalqının iradəsi əsasında qoyulub: “Hələ o dövrlərdə ölkəmiz öz müstəqilliyini itirmək təhlükəsini yaşayarkən, ulu öndər Heydər Əliyevə müraciət etdi və onun ölkəyə rəhbərlik etməsi üçün qətiyyətini sərgilədi. Məhz həmin zamandan Azərbaycanda lider-xalq birliyi modeli formalaşmağa başladı. Bu gün, analoqu olmayan bu kimi əhəmiyyətli model tam vüsətlə tərəqqi edir, Ulu öndərin layiqli davamçısı, dövlət başçısı İlham Əliyevin şəxsində, xarizmasında özünü dünyaya təqdim edir”. B.Quliyev vurğulayıb ki, ölkə başçısı hər bir azərbaycanlının prezidenti kimi xalqının, ölkəsinin qayğıları haqqında düşünüb: “Məhz bunun nəticəsidir ki, lider-xalq birliyi uzun müddətdir ki, öz mövcudluğunu qoruyub saxlayır və onun dayaqları, tarixi əsaslara söykənib”.

Ekspert həmçinin əldə edilən nailiyyətlərin, uğurların, qələbələrin də həmin amildən qaynaqlandığını bildirib: “Ölkə başçımız da öz çıxışında bildirib ki, bütün beynəlxalq mötəbər qurumların reytinqlərində Azərbaycan qabaqcıl yerlərdədir. Prezident İlham Əliyev vuğulayıb ki, ölkəmizdə təhlükəsizlik, sabitlik təmin edilib. Sabitliyin mənbəyi isə Azərbaycan xalqının iradəsidir, xalq-iqtidar birliyidir. Bəli, əgər bu mühüm siyasi formul mövcud olmasaydı, bu gün biz hər hansı müstəqillikdən, inkişafdan danışa bilməzdik. Çünki sabitlik, sakitlik olmayan ölkələrdə nə investisiyalar qoyulur, nə inkişaf olur, əksinə siyasi-ictimai, həmçinin, sosial vəziyyət bilavasitə tənəzzülə uğrayır. Lakin bizdə - Azərbaycanda tamamilə əksinədir. İstər region dövlətləri sırasında, istərsə də beynəlxalq aləmdə hətta ən aparıcı ölkələrdə Azərbaycandakı qədər lider-xalq vəhdəti, eləcə də xalqın bu istiqamətdəki qətiyyəti mövcud deyil. Azərbaycan isə təhlükəsizlik, əmin-amanlıq, sabitlik şəraitində öz yolu ilə uğurla gedir. Dövlət başçımızın da vurğuladığı kimi, “Bu gün inkişaf parametrlərinə və vətəndaş həmrəyliyinə görə Azərbaycan dünyada nümunəvi ölkələrindən biridir””.

“Əgər biz dünyada baş verən qlobal problemlərə, kataklizimlərə nəzər salsaq, belə bir nəticəyə gələ bilərik”-deyə sonda qeyd edən B.Quliyev bildirib ki, Prezident İlham Əliyev ölkə rəhbəri olaraq, xalqının siyasi lideri olaraq əsas hədəfi Azərbaycan xalqının maraqlarıdır: “Hər bir Azərbaycan vətəndaşı dövlətinə olan sədaqətini daha da möhkəmləndirərsə, bu iradəsini davamlı olaraq nümayiş etdirərsə, müstəqilliyimizin əbədiliyi, dönməzliyi daha da sarsılmaz əsaslara söykənəcək, Azərbaycan dünyanın lider ölkələri sırasında öz yerini möhkəmləndirəcək, beynəlxalq aləmdə daha mötəbər söz sahibinə çevriləcəkdir.”

# Gəncə gəncləri bayramlarını qeyd ediblər

***Yeni Azərbaycan Partiyası Gəncə şəhər təşkilatı gənclər birliyi 2 Fevral-Gənclər Günü münasibətilə tədbir keçirib. Şəhər rəsmilərinin, ziyalıların, fəal gənclərin və tələbələrin iştirak etdiyi tədbir Azərbaycan Respublikası Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Tədbirdə YAP Gəncə şəhər təşkilatı gənclər birliyinin sədri Yüksəl Məmmədov çıxış edərək bayram münasibəti ilə gəncləri təbrik edib: “Dünyada sabitlik diyarı kimi tanınan Azərbaycan uğurları ilə beynəlxalq aləmin diqqətini cəlb edir. Bu uğurlar gənclərimizdə böyük qürur hissi doğurur və onların daha səylə çalışmalarına stimul verir.***






Azərbaycan gəncləri Ümummilli Lider Heydər Əliyev siyasətinin Prezident Cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi nəticəsində, ölkəmizin dinamik inkişafının davamlılığını təmin etmək üçün üzərlərinə düşən vəzifələri yüksək səviyyədə yerinə yetirməyə çalışırlar”.

Tədbirdə çıxış edən Millət vəkili, YAP Gəncə şəhər təşkilatı qadınlar şurasının sədri Pərvin Kərimzadə bildirib ki, dövlət-gənclər siyasətinin Prezident Cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün Azərbaycan gəncləri bütün sahələrdə özlərini doğruldurlar: “Bu gün Qədim Gəncə şəhərində də gənclər infrastrukturu genişlənir, gənclərin asudə vaxtlarının səmərəli təşkili üçün parklar, kafelər və əyləncə mərkəzləri tikilib istifadəyə verilir. Uşaqların və gənclərin təhsil keyfiyyətinin artırılması, daha yaxşı mühitdə təhsil almaları üçün yeni təhsil müəssisələri tikilir və mövcud müəssisələr yenidən bərpa olunur”. Şəhər icra hakimiyyətinin baş məsləhətçisi Kənan Məmmədov tədbirdə çıxış edərək Prezident Cənab İlham Əliyevin rəhbərliyi ilə reallaşdırılan siyasətin Azərbaycanı daha da qüdrətləndirmək, gücləndirmək və müasirləşdirmək məqsədinə xidmət etdiyini qeyd edib. Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Müşfiq Cəfərov vurğulayıb ki, Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi siyasətdə gənclərə qayğı xüsusi yer tutur və 2 Fevral Gənclər Gününün təsis edilməsi bunun parlaq nümunəsidir.

YAP Gəncə şəhər təşkilatı ideologiya şöbəsinin müdiri Hüseyn Budaqov ölkə Prezidenti Cənab İlham Əliyevin gənclərə hərtərəfli qayğısı sayəsində gənclərin yüksək təhsili, ictimai-siyasi fəallığı və dövlət quruculuğu işində yaxından iştirakı üçün hər bir şəraitin yaradıldığını bildirib.

ADAU-nun magistrantı Ayişə Novruzova və digər gənclər çıxış edərək, onlara göstərilən diqqət və qayğıya görə ölkə başçısına minnətdarlıqlarını bildirib, bütün gəncləri Prezident Cənab İlham Əliyevin ətrafında sıx birləşməyə və həmrəy olmağa çağırıblar.

Sonra ictimai işlərdə xüsusi fəallıqları ilə seçilən gənclər Fəxri Fərmanla təltif ediliblər.

Tədbir Gəncə Musiqi Kolleci tələbələrinin hazırladığı konsert proqramı ilə davam edib.

***RÖVŞƏN***

# Sabitliyin mənbəyi Azərbaycan xalqının iradəsidir və xalq-iqtidar birliyidir!

## *Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin strateji hədəfi dövlətin qüdrətini artırmaq və onun müstəqilliyini möhkəmləndirməkdir*

***Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının dördüncü ilinin yekunlarına həsr olunan konfransda Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin nitqi və irəli sürdüyü mühüm fikirləri, bir daha sübut etdi ki, Azərbaycan son 14 ildə nəhəng inkişaf və tərəqqi yolu keçərək, lider ölkələr sırasına yüksəlib. Belə ki, 2004-2017-ci ildə ölkəmiz öz inkişaf parametrlərinə görə, bənzərsiz sıçrayış nümayiş etdirib, cəmiyyət həyatının bütün sferaları yenilənib, müasirləşib, əhalinin rifah halı müqayisəolunmaz dərəcədə yaxşılaşıb, sabitlik və təhlükəsizlik mühiti tam təmin edilib və ölkənin beynəlxalq nüfuzu artıb.***




Beləliklə, biz bir daha, əminliklə vurğulaya bilərik ki, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin strateji hədəfi dövlətin qüdrətini artırmaq və onun müstəqilliyini möhkəmləndirməkdir. 2018-ci ildə sosial, iqtisadi, ictimai, siyasi, mədəni və digər sahələrdə həyata keçirilməsi nəzərdə tutulan genişmiqyaslı tədbirlər əldə olunmuş uğurları möhkəmləndirmək, Azərbaycanın potensial imkanlarını daha da gücləndirmək məqsədi daşıyır. Həmçinin, qeyd edə bilərik ki, Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası ilə bağlı qarşıda duran bütün vəzifələr uğurla yerinə yetirilib. Prezident İlham Əliyev çıxışında vurğulayıb ki, 2004-cü ilin əvvəllərində qəbul edilmiş proqram Azərbaycan regionlarında dönüş yaratdı və bölgələrin sürətli inkişafını təmin etdi.

### "Həyata keçirilən infrastruktur layihələri Azərbaycanın ümumi inkişafına böyük təkan verdi"

SİTAT: "Son 14 il ərzində Azərbaycan böyük və şərəfli inkişaf yolu keçmiş, bütün sahələrdə böyük uğurlara imza atılmışdır. Azərbaycanda aparılan siyasi-iqtisadi islahatlar dünya birliyi tərəfindən yüksək qiymətləndirilir. Bütün mötəbər beynəlxalq qurumların reytinqlərində Azərbaycan qabaqcıl yerlərdədir. Azərbaycanda təhlükəsizlik və sabitlik təmin edilir. Sabitliyin mənbəyi Azərbaycan xalqının iradəsidir, xalq-iqtidar birliyidir. İnkişaf parametrlərinə və vətəndaş həmrəyliyinə görə Azərbaycan dünyada nümunəvi ölkələrdən biridir. Həyata keçirilən infrastruktur layihələri Azərbaycanın ümumi inkişafına böyük təkan verdi. Nəhəng transmilli infrastruktur layihələri Avrasiyanın enerji və nəqliyyat xəritəsini dəyişdi. Azərbaycanda həyata keçirilən siyasətin təməlində vətəndaşların maraqları dayanır. Azərbaycanda həyata keçirilən siyasətin strateji hədəfi ölkəni daha da gücləndirmək, dövlətin qüdrətini artırmaq, onun müstəqilliyini möhkəmləndirməkdir".

Ölkə başçısı qeyd edib ki, son 14 ildə Azərbaycanda 2500 meqavat gücündə 30 elektrik stansiyası tikilmiş və ümumi generasiya gücü 6400 meqavata çatdırılmışdır: "2004-cü ildən ötən dövr ərzində Azərbaycanda qazlaşdırma 51 faizdən 93 faizə çatdırılmışdır. 2004-cü ildə ölkə üzrə fasiləsiz içməli su ilə təminat 26 faizdən 2017-ci ildə 67 faizə çatdırılmışdır. Son 14 ildə dörd su anbarı tikilmiş, həyata keçirilən meliorativ tədbirlər kənd təsərrüfatının inkişafına güclü təsir göstərmişdir. Həyata keçirilən tədbirlər suvarılmayan torpaqlara həyat gətirdi, fermerlər, sahibkarlar üçün əlverişli şərait yaradıldı və kənd təsərrüfatının inkişafına güclü təkan verildi. Son 14 ildə 12 min 300 kilometr yol çəkilmiş və 443 körpü tikilmişdir".

### "Xarici sərmayələr göstərir ki, Azərbaycana inam, həyata keçirilən siyasətə dəstək var, ölkənin gələcəyinə ümidlər çox böyükdür"

Dövlət rəhbəri bildirib ki, əsas məqsəd Azərbaycanın inkişafını daha da sürətləndirmək, dayanıqlı, uzunmüddətli inkişafa nail olmaqdır. Belə ki, 14 il ərzində iqtisadi göstəricilər ümumi inkişafın uğurlu dinamikasını əyani şəkildə göstərir: "Azərbaycan iqtisadiyyatı 14 il ərzində 3,2 dəfə artmış, qeyri-neft iqtisadiyyatı isə 2,8 dəfə yüksəlmişdir. Sənayedə 2,6 dəfə, kənd təsərrüfatında 1,7 dəfə, qeyri-neft ixracı sahəsində 4,1 dəfə artm var. Azərbaycanın valyuta ehtiyatları 2004-cü ildəki 1,8 milyard dollardan 2018-ci ilin əvvəlinə görə, 42 milyard dollara çatmışdır. Adambaşına düşən valyuta ehtiyatlarının həcminə görə Azərbaycan dünya miqyasında qabaqcıl yerlərdədir. Azərbaycanın böyük valyuta ehtiyatları ölkəyə iqtisadi müstəqillik verir. Azərbaycan tam müstəqil siyasət yürüdür, bütün məsələlərlə bağlı öz mövqeyi var və bu mövqeyi çəkinmədən ifadə edir. On dörd il ərzində Azərbaycan iqtisadiyyatına 231 milyard dollar sərmayə qoyulmuşdur. Bunun yarısı xarici, yarısı isə daxili sərmayədir. Adambaşına düşən sərmayələrin həcminə görə, Azərbaycan dünya miqyasında lider dövlətlər arasındadır. Xarici sərmayələr göstərir ki, Azərbaycana inam, həyata keçirilən siyasətə dəstək var, ölkənin gələcəyinə ümidlər çox böyükdür. 2017-ci ildə Azərbaycana 14,6 milyard dollar sərmayə qoyulub, bu il də həmin həcmdə investisiya yatırılması nəzərdə tutulur. Son 14 il ərzində Azərbaycanda 1,9 milyon iş yeri yaradılmışdır ki, onlardan 1,4 milyonu daimi iş yeridir".

Beləliklə, Prezident İlham Əliyev vurğulayıb ki, iş yerlərinin yaradılması Azərbaycanda daimi proses olmalıdır. "Bu gün Azərbaycanda işsizlik 5 faiz, yoxsulluq isə 5,4 faiz səviyyəsindədir"-deyə qeyd edən ölkə rəhbəri bildirib ki, 14 ildə maaşlar beş dəfə, pensiyalar səkkiz dəfə artmışdır: "Son 14 ildə Azərbaycanda 3100-dən çox məktəb, 642 tibb müəssisəsi tikilmiş, yaxud təmir edilmişdir, 43 Olimpiya İdman Kompleksi inşa olunmuşdur. Biznesin inkişafı üçün şəraitin yaradılması istiqamətində ciddi addımlar atılmış, sahibkarlara güzəştli şərtlərlə 2 milyard manatdan çox kreditlər verilmişdir. "ASAN Xidmət" mərkəzləri ictimai xidmətlər sahəsində inqilabi dönüş yaratmışdır. Son beş il ərzində bu mərkəzlərdə 20 milyona yaxın müraciət qəbul edilmişdir. Azərbaycanda rüşvətxorluğa, korrupsiyaya, bürokratiyaya qarşı çox ciddi, mübarizə aparılır, bu sahədə system, institusional xarakterli tədbirlər görülür. Azərbaycanı texnoloji cəhətdən inkişaf etdirmək üçün böyük addımlar atılmışdır. Azərbaycan kosmik

# Sabitliyin mənbəyi Azərbaycan xalqının iradəsidir və xalq-iqtidar birliyidir!

## *Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin strateji hədəfi dövlətin qüdrətini artırmaq və onun müstəqilliyini möhkəmləndirməkdir*

dövlətə çevrilmişdir. Hazırda orbitdə Azərbaycanın iki peyki var - telekommunikasiya və əraziləri müşahidə peykləri. Üçüncü peyk 2018-ci ildə orbitə buraxılacaq. Nəhəng nəqliyyat və energetika layihələri Azərbaycanın uzunmüddətli uğurlu inkişafını şərtləndirən layihələrdir. Son 14 ildə Azərbaycanda yeddi aeroport, böyük gəmiqayırma zavodu, Xəzərdə ən böyük Dəniz-Ticarət Limanı tikilmiş, Bakı-Tbilisi-Qars dəmir yolu istifadəyə verilmişdir. Bakı-Tbilisi-Qars dəmir yolu tarixi layihə, Avrasiyada nəqliyyat dəhlizlərinin yaradılması istiqamətində son illərdə ən önəmli layihədir. Azərbaycan Şimal-Cənub Nəqliyyat Dəhlizinin yaradılması ilə bağlı üzərinə götürdüyü öhdəlikləri qısa müddət ərzində həll etmişdir. Qlobal enerji və nəqliyyat layihələrinin həyata keçirilməsi xalq qarşısında tarixi xidmətlərdir. Bu layihələr Azərbaycanın uzunmüddətli inkişafına şərait yaradır".

### "2018-ci ildə Azərbaycan öz inkişafını davam etdirəcək və qarşıda duran bütün vəzifələr icra olunacaqdır"

Dövlət başçısı qeyd edib ki, Azərbaycan öz enerji təhlükəsizliyini tam təmin edir və digər ölkələrin enerji təhlükəsizliyinin təmin edilməsinə töhfə verir. SİTAT: "2018-ci ildə Azərbaycanda qazlaşdırma 95 faizə çatdırılmalıdır. Bu məqsədlər üçün bu il Azərbaycan Dövlət Neft Şirkətinə 100 milyon manata yaxın vəsait nəzərdə tutulur. 400 meqavat gücündə olan "Şimal-2" Elektrik Stansiyasının istifadəyə verilməsi Azərbaycanın enerji ixracı imkanlarını artıracaq. İçməli su və kanalizasiya layihələri ilə bağlı işlər davam etdiriləcək. Bu il üç şəhərin - Mingəçevir, Qəbələ və Ağdaşın içməli su və kanalizasiya problemi tam həll olunacaq. Daha 20 şəhərdə içməli su və kanalizasiya layihələri icra ediləcək. Bu il 100 min hektar suvarılmayan torpaqlara su verilməlidir. 2017-2018-ci illərdə 200 mindən çox hektara suyun təminatı təşkil ediləcək. Bu il 2300 kilometr avtomobil yolu - həm magistral, şəhərlərarası, eyni zamanda, kənd yolları çəkiləcək. 2017-ci ildə "40 yol" adlandırılan layihə çərçivəsində 500-dən çox kəndin yolu tikilmiş və abadlaşdırılmışdır. 2018-ci ildə 600 kəndin yolu tikilməlidir.

Altı şəhərdə - Qazax, Qobustan, Şəmkir, Quba, Naftalan və Goranboy şəhərlərində yeni rayon mərkəzi xəstəxanalarının tikintisi başa çatmalı, Füzuli rayonu və Qəbələ şəhərində rayon mərkəzi xəstəxanalarının tikintisi aparılacaq. Keçən il 5 milyondan çox vətəndaş pulsuz tibbi müayinədən keçmişdir. Bu il 137 modul tipli məktəb tikiləcək, Bakı şəhərində 12 məktəb əsaslı təmir ediləcək, kəndlərdə 100-dən çox məktəb qazlaşdırılacaq və yüzlərlə məktəbdə təmir işləri aparılacaq. Dörd şəhərdə Olimpiya idman mərkəzləri tikilməlidir. Onlardan ikisi bu il, ikisi isə gələn il istifadəyə veriləcək. Bu günə qədər 265 min köçkün yeni evlərlə və mənzillərlə təmin edilib".

### "Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək və dağıdılmış ərazilərdə yeni şəhərlər, qəsəbələr, kəndlər, məktəblər, yaşayış binaları, bütün infrastruktur tikiləcək"

Prezident İlham Əliyev Cocuq Mərcanlıda aparılan tikinti və quruculuq işləri barədə də fikir bildirərək, deyib ki, Cocuq Mərcanlının bərpası və Şıxarxda yeni şəhərciyin tikintisi Azərbaycan dövlətinin və xalqının iradəsini göstərir. Belə ki, O, əminliklə qeyd edib ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmayacaq: "Köçkünlər öz doğma torpaqlarına getməyə hazırdırlar. Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək və dağıdılmış ərazilərdə yeni şəhərlər, qəsəbələr, kəndlər, məktəblər, yaşayış binaları, bütün infrastruktur tikiləcək. 2018-ci ildə 20 min köçkün yeni evlərlə təmin ediləcək. 2017-ci ildə 12 min köçkün yeni evlər və mənzillərlə təmin edilmişdir.Böyük tikinti və infrastruktur layihələri, sənaye obyektlərinin işə düşməsi iş yerlərinin açılmasına şərait yaradır. 6-7 min ailə özünüməşğulluq proqramına cəlb ediləcək. Ağır vəziyyətdə yaşayan, dövlətdən sosial yardım alan vətəndaşlar özləri pul qazanacaqlar, ailələrini zəhmətləri ilə dolandıracaqlar və öz həyatlarını quracaqlar. "Ailə Biznesinə Asan Dəstək" layihəsi inkişaf etditiləcək. Bu, fermerlərə, ailə təsərrüfatlarına imkan verir ki, öz məhsullarını müasir formada yerli və xarici bazarlara çıxarsınlar. "ABAD" layihəsi ilə bağlı böyük biznes şirkətləri daha fəal olmalıdırlar. İri biznes qurumları öz sosial məsuliyyətlərini dərk etməlidirlər. Dövlətin investisiya siyasəti nəticəsində, bölgələrdə bütün infrastruktur layihələri icra edilib və icra edilir. Yerli icra orqanları bu işlərdə daha da fəal çalışmalı və sərmayə cəlb etməlidirlər".

"Bakı-Tbilisi-Qars dəmir yolunun uğurlu fəaliyyəti üçün lazımi tədbirlər görüləcək"- deyə vurğulayan ölkə başçısı bildirib ki, Şərq-Qərb Nəqliyyat Dəhlizinin reallaşmasına nail olunmuşdur: "Şimal-Cənub Nəqliyyat Dəhlizinin effektivliyini təmin etmək məqsədilə Yalama və Bakı-Astara dəmir yollarının modernləşdirilməsi və yenidən qurulması nəzərdə tutulmuşdur. Turizm sektorunun inkişafını nəzərə alaraq, Qəbələ və Qusara dəmir yolunun çəkilişi planlaşdırılır.

Bu il 15 milyon ton yükü aşıra biləcək Xəzər dənizinin ən böyük ticarət limanı - Ələt Dəniz-Ticarət Limanı fəaliyyətə başlayacaq. Azərbaycan, nəinki regionun və Avrasiyanın nəqliyyat mərkəzlərindən birinə çevrilir. Bu il üç "ASAN Xidmət" mərkəzi açılacaq və mərkəzlərin sayı 15-ə çatacaq. Beş mərkəzin tikintisi isə, bu il başlanmalıdır. Mənzil İnşaatı Dövlət Agentliyinin Hövsanda başlayan ikinci layihəsi çərçivəsində 10 min insan sosial evlərlə təmin ediləcək. Bu il Yasamal layihəsinin evlərinin bir hissəsi vətəndaşlara təqdim ediləcəkdir. Turizmin inkişafı ilə bağlı bölgələrdə yeni otellərin tikilməsinə ehtiyac var. 2017-ci ildə ölkəyə gələn turistlərin sayı beş minə yaxın artmışdır. Sənaye istehsalı ilə bağlı bu il çox önəmli açılışlar olacaq. Sumqayıt Kimya Sənaye Parkının yaradılması böyük uğurdur.

Bölgələrdə sənaye zonaları, sənaye məhəllələri və sənaye parkları yaradılır. Bu il Mingəçevir Yüngül Sənaye Parkının ilk zavodlarının açılışı gözlənilir. Neftçala Sənaye Məhəllәsi artıq fəaliyyətə başlamışdır. Masallı, Hacıqabul və Sabirabad sənaye məhəllələri bu il fəaliyyətə başlaya bilər. 2018-ci ildə 10 yeni xalça fabrikinin açılışı nəzərdə tutulur. İlin sonuna qədər Azərbaycanda 20 xalça fabriki fəaliyyət göstərəcək. Birinci mərhələdə xalça fabriklərinin sayı 30-a çatmalıdır.

2017-ci ildə Azərbaycana 10 min kənd təsərrüfatı texnikası gətirilmişdir. Bu il bu proses davam etdiriləcək. Ərzaq təhlükəsizliyi məsələləri daim diqqət mərkəzindədir. Hazırda 28 rayonda 43 aqroparkın yaradılması nəzərdə tutulur. Bu aqroparklar sayəsində ərzaq təhlükəsizliyi ilə bağlı əsas məsələlər həll ediləcək.

Ölkədə tərəvəz, meyvə istehsalı və ixracı sahəsində ciddi irəliləyiş müşahidə olunur. Pambıqçılıq, baramaçılıq, fındıqçılıq, tütünçülük, üzümçülük, zeytunçuluq, arıçılıq, çayçılıq, çəltikçilik, sitrusçuluq və s. kənd təsərrüfatı sahələrinin inkişafı ilə bağlı ciddi tədbirlər davam etdiriləcək. Kənd təsərrüfatı məhsullarının ixracında müsbət dinamika və meyillər vardır. Qida və qeyri-qida məhsullarının istehsalı və ixracında müşahidə olunan müsbət dinamika qeyri-neft iqtisadiyyatının sürətlə inkişaf etdiyini və ölkənin ixrac potensialının yüksəldiyini göstərir. Azərbaycan iqtisadiyyatı inkişaf edir, ölkənin maliyyə vəziyyəti sabitdir. Beynəlxalq qurumlar - Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, beynəlxalq reytinq agentlikləri Azərbaycanda aparılan islahatları yüksək qiymətləndirirlər. Davos Dünya İqtisadi Forumu rəqabətqabiliyyətliliyinə görə, Azərbaycanı 35-ci yerə layiq görmüşdür.İnklüziv inkişaf indeksinə görə, Azərbaycan inkişafda olan ölkələr arasında üçüncü yerdədir".

Bütün bunlar isə, ölkədə aparılan uğurlu və məqsədyönlü siyasətin tərkib hissəsidir. Daha dəqiq desək, Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı üçün məqsədəuyğun tədbirlər görülüb və böyük nəticələr əldə edilib. Habelə Azərbaycanın liderliyi ilə reallaşdırılan nəhəng transmilli layihələr regionun və ümumilikdə, Avrasiya məkanında tam müstəqil ölkə kimi özünü təsdiq edib, beynəlxalq aləmdə fəallığı ilə seçilib, gündəlikdə duran aktual məsələlərlə əlaqədar prinsipial və qətiyyətli mövqe nümayiş etdirib.

***Rövşən NURƏDDİNOĞLU***

## Son on ildə muxtar respublikada 47 minə yaxın yeni iş yeri açılıb

Muxtar respublikada 2007-ci illə müqayisədə 2017-ci ildə ümumi daxili məhsul istehsalı 5 dəfə, sənaye məhsulu 7,9 dəfə, əsas kapitala yönəldilən vəsaitlər 4,5 dəfə, kənd təsərrüfatı məhsulu 3,7 dəfə, nəqliyyat sektorunda yük daşınması 2 dəfə, informasiya və rabitə xidmətləri 3,1 dəfə, pərakəndə əmtəə dövriyyəsi 6,4 dəfə, əhaliyə göstərilən ödənişli xidmətlər 4,7 dəfə artıb. Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, əhalinin məşğulluğunun təmin olunması ilə əlaqədar 2007-ci ildən 2018-ci il yanvarın 1-dək muxtar respublikada 46 min 717 yeni iş yeri açılıb. Bunun də 84,7 faizi daimi iş yerləridir. Həyata keçirilən uğurlu siyasətin nəticəsi olaraq bu gün rəsmi işsiz statusu alan şəxs qeydə alınmayıb, məşğul əhalinin sayı 2007-ci ilin sonu ilə müqayisədə 1,3 dəfə artaraq 235,5 min nəfərə çatıb. Yüksək əməktutumlu iş yerlərinin yaradılması əhalinin səmərəli məşğulluğunu təmin edib, bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı göstəricisi 416 manatı ötüb. 2007-ci ildə bu göstərici 153,9 manat səviyyəsində olub.

Muxtar respublikada sosial-iqtisadi həyatın bütün sahələrində qazanılan uğurlar, yeni iş yerlərinin açılması, səmərəli məşğulluğun təmin edilməsi əhalinin rifah halını yaxşılaşdırıb, alıcılıq qabiliyyətini yüksəldib. Bunun nəticəsində 2017-ci ildə muxtar respublikanın pərakəndə ticarət şəbəkəsində satılmış məhsulların dəyəri 2007-ci illə müqayisədə 6,3 dəfə artaraq 1 milyard 596 milyon manatı ötüb. İstehlak malları üzrə satışın 9,2 faizi ticarət təşkilatlarının, 19,6 faizi kənd təsərrüfatı məhsulları bazarlarının, 17,2 faizi ərzaq, qeyri-ərzaq və qarışıq mallar satışı ilə məşğul olan yarmarkaların və 54 faizi fiziki şəxslərin payına düşüb. Satılmış məhsulların 50,5 faizini ərzaq, 49,5 faizini isə qeyri-ərzaq məhsulları təşkil edib.

# Azərbaycanın sosial-iqtisadi inkişafı onun gücünü artırır, beynəlxalq müstəvidə mövqeyini möhkəmləndirir

*Milli Məclisin Regional məsələlər komitəsinin üzvü Tahir Rzayevin yap.org.az-a müsahibəsi*

***- Tahir müəllim, məlum olduğu kimi yanvarın 29-da Prezident İlham Əliyevin iştirakı ilə "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının dördüncü ilinin yekunlarına həsr olunan konfrans keçirilib. Konfransın əhəmiyyəti və ötən dövrdə əldə olunan nəticələr haqqında nə deyə bilərsiniz?***

- Ümumiyyətlə, bu tipli toplantıların keçirilməsi atıq ənənə halını alıb. Ölkəmizin sosial-iqtisadi inkişafı ilə bağlı hər il rüblük, yarım illik və ilin yekunlarına dair Nazirlər Kabinetinin iclasları keçirilir. Dövlət proqramlarının illik yekunlarına da dair konfranslar da keçirilir. Bu, bir hesabatdır. Görülən işlərin nəticələrini təhlil etmək və qarşıda duran vəzifələri müəyyənləşdirmək baxımından belə tədbirlər çox böyük əhəmiyyət kəsb edir.

Bu baxımdan, "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının dördüncü ilinin yekunlarına həsr olunan konfrans çox vacibdir. Konfransda Azərbaycan Prezidenti İlham Əliyev təkcə ötən bir ilin deyil, bütövlükdə son 14 ilin sosial-iqtisadi göstəricilərini xatırlatdı. Dövlət başçısı vurğuladı ki, əldə olunan yüksək nəticələrə ilk növbədə ictimai-siyasi sabitlik sayəsində nail olunub. Çünki sabitlik olmayan yerdə hansısa inkişafdan söhbət gedə bilməz. Dünyada baş verən mürəkkəb, ziddiyyətli proseslər fonunda Azərbaycanda sabitlik hökm sürür, milli həmrəylik var. Bu amillər isə inkişafımızın əsasını təşkil edir.

Son 14 ilin nəticələri də bu reallığı təsdiqləyir. Belə ki, bu dövrdə iqtisadiyyatımız 3,2 dəfə, qeyri-neft iqtisadiyyatı isə 2,8 dəfə artıb. Sənaye sahəsində 2,6 dəfə, kənd təsərrüfatında isə 1,7 dəfə artım müşahidə olunur. Qeyri-neft ixracımız 4,1 dəfə artıb.

Ötən dövrdə 30 elektrik stansiyası tikilib, qazlaşdırma 93 faizdir. İçməli su təminatına gəlincə, bu göstərici ölkə üzrə 14 il əvvəl 26 faiz idisə, hazırda 67 faizdir. Hazırda regionlarda su-kanalizasiya sisteminin yaradılması istiqamətində də böyük işlər görülür. Eləcə də, bölgələrdə 4 böyük su anbarı tikilib. Taxtakörpü, Şəmkirçay, Göytəpə və Tovuzçay su anbarları tikilib istifadəyə verilib ki, bu da böyük ərazilərin su təminatında mühüm rol oynayır.

Konfransda dövlət başçısının qeyd etdiyi kimi 14 il ərzində 12 min 300 kilometr yol, 443 körpü tikilib. Yol infrastrukturunun yeniləşdirilməsi iqtisadiyyatın yüksəlməsinə böyük təsir göstərməklə yanaşı, əhaliyə həyat rahatlığı verir.

Yəni bütün görülən işlər Azərbaycanın sosial-iqtisadi inkişafına böyük töhfələr verir. Bütövlükdə, hər bir sahədə qazanılan nailiyyətlər Azərbaycanın gücünü artırır, beynəlxalq müstəvidə də mövqeyini möhkəmləndirir. Davos İqtisadi Forumunun Azərbaycan iqtisadiyyatına verdiyi qiymət, onun hesabatlarında ölkəmizin irəliləməsi hər birimizdə qürur yaradır. Çünki dünyanın ən mötəbər bir qurumunun mövqeyi ən obyektiv və düzgün yanaşmadır. Bütün bunlar göstərir ki, Azərbaycan Ümummilli lider Heydər Əliyevin ideyaları və Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf edir. Azərbayanın yolu doğru yoldur və biz bu yolu davam edərək gələcəkdə daha böyük nailiyyətlər əldə edəcəyik.

***- Son illər ölkəmizin regionlarında sosial infrastruktur quruculuğu da uğurla həyata keçirilib. Bu amilin əhəmiyyəti nədən ibarətdir?***



- Ölkəmizdə həyata keçirilən sosial siyasət əhalinin rifahının daha da yüksəlməsinə xidmət edir. Bu baxımdan, ötən dövr ərzində əhəmiyyətli işlər görülüb. Təkcə, ötən il ərzində 221 min yeni iş yeri açılıb ki, onların 177 mini daimidir. 14 il ərzində isə ölkəmizdə 1,9 milyon iş yeri yaradılıb ki, onlardan 1,4 milyonu daimi iş yeridir. Ancaq bu dövrdə əhalinin 1,5 milyon nəfər artması nəzərə alınsa, gələcəkdə də bu prosesin davamlı olacağını deyə bilərik.

Digər mühüm məqam ondan ibarətdir ki, Azərbaycanda işsizlik 5 faiz, yoxsulluq isə 5,4 faiz səviyyəsindədir. Bütün bunlarla yanaşı, Azərbaycanda sosial infrastruktur quruculuğu da uğurla davam edir və 2017-ci ildə də bu istiqamətdə mühüm işlər görülüb. Dövlət başçısının vurğuladığı kimi ötən il ölkəmizdə 133 yeni məktəb tikilib, 14 məktəb əsaslı təmir edilib, 500-ə yaxın məktəbdə isə cari təmir aparılıb. Eləcə də, bu dövrdə 30 tibb müəssisəsi tikilib və əsaslı təmir edilib. Son 14 il ərzində isə 3100-dən çox məktəb, 642 tibb müəssisəsi tikilib, yaxud təmir edilib. Qarşıdakı dövrdə də investisiya proqramına əsasən sosial infrastruktur quruculuğu davam etdiriləcək.

***- Qarşıda duran əsas hədəflərdən biri kənd təsərrüfatını daha da inkişaf etdirməkdir. Dövlət başçısı bu məsələ ilə bağlı konfransda müvafiq tövsiyə və tapşırıqlarını verib...***

- Azərbaycanda 2004-cü ildən uğurla reallaşdırılan regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramları çərçivəsində bölgələrimizin siması əhəmiyyətli dərəcədə dəyişməkdədir. Bölgələrlə paytaxt arasında fərqin minimuma enməsində və bəhs olunan müsbət dinamikanın yaranmasında Prezident İlham Əliyevin respublikanın hərtərəfli və tarazlı inkişafına göstərdiyi diqqət, siyasi iradə əsas amil rolunda çıxış edib. Dövlət proqramlarında nəzərdə tutulan tədbirlərin, müxtəlif istiqamətləri əhatə edən layihələrin reallaşdırılması sayəsində respublikanın bölgələrində yeni müsbət reallıqlar yaranıb və hədəflərə çatmaq üçün sistemli tədbirlər həyata keçirilir.

Bu hədəflər sırasında aqrar sektorda istehsalın artırılması xüsusi yer tutur. Qeyd edim ki, respublikamızda aqrar sektorun inkişafı ilə bağlı qarşıya qoyulan məqsədlərə çatmaq üçün genişmiqyaslı tədbirlər həyata keçirilir. Ölkədə 2004-cü ildən bəri uğurla reallaşdırılan regionların sosial-iqtisadi inkişafına dair müvafiq Dövlət proqramlarının icrası çərçivəsində aqrar sektorda daha böyük həcmlərdə istehsal imkanlarının yaradılmasına hesablanan çoxsaylı layihələr həyata keçirilib, həmçinin perspektiv üçün də yeni layihələr nəzərdə tutulub.

Son illərdə regionlarda müasir təsərrüfat subyektlərinin yaradılması ölkəmizdə aqrar sektorun yeni yanaşmalar əsasında inkişaf etdirilməsinə yaxşı nümunədir. Hazırda respublikamızda iri fermer təsərrüfatlarının yaradılması uğurla həyata keçirilir. İndiyədək dövlət başçısının tapşırığına uyğun olaraq ölkəmizin 20 rayonunda 44 min hektardan çox sahədə 22 sahibkarlıq subyekti tərəfindən 32 iri fermer təsərrüfatı yaradılıb. Ümumi dəyəri 181 milyon manat olan bu təsərrüfatların yaradılmasına 72,4 milyon manat dövlət güzəştli kreditləri verilib. İri fermer təsərrüfatlarında məhsuldarlıq hər hektardan arpa və buğda üzrə 58-60, qarğıdalı üzrə isə təxminən 120 sentner təşkil edir. Regionlarda istixanaların salınması da çox geniş vüsət alıb. Respublikanın bölgələrində əsasən ixraca hesablanan istixanaların yaradılması təşəbbüsünü Prezident İlham Əliyev irəli sürüb. Dövlət başçısının çağırışına uyğun olaraq hazırda 400 hektardan çox sahədə yeni, müasir istixana kompleksləri yaradılır. Artıq bir sıra bölgələrdə fəaliyyətə başlayan istixanalarda yüksək məhsuldarlığa nail olunur.

Ölkəmizdə Prezident İlham Əliyevin aqrar sahədə intensiv texnologiyaların tətbiqi ilə bağlı tapşırığına uyğun olaraq həmçinin aqroparkların yaradılmasına başlanılıb. İndiyədək ölkənin regionlarında 10 min hektar ərazidə 2 aqropark yaradılıb. Bunlar Xaçmaz rayonunda "Yalama Aqroparkı" və qərb bölgəsində "Şəmkir Aqroparkı"dır.

Perspektivdə Azərbaycanın bölgələrində aqroparkların sayı daha da artacaq. Hazırda ölkə ərazisində aqroparkların yaradılması güclü şəkildə təşviq olunur. Yeni yaradılan aqroparklar həm bitkiçilik, həm də heyvandarlıq istiqamətlidir. Bu aqroparklarda 10 min yeni iş yerinin açılması nəzərdə tutulur. On aqropark üzrə dəyəri 390 milyon manat olan 13 layihəyə investisiya təşviqi sənədi verilib. Hazırda Hacıqabul, Goranboy, Samux, Ağcabədi, Qax, Salyan, Kürdəmir, Şamaxı, Saatlı, Cəlilabad, Füzuli və İsmayıllı rayonlarında 58 min hektar ərazidə 12 aqroparkın yaradılmasına başlanılıb. Aqroparklar tam fəaliyyətə başladıqdan sonra kənd təsərrüfatında daha böyük nəticələr əldə olunacaq.

Konfransda cənab Prezident kənd təsərrüfatının inkişafı ilə bağlı qarşıda dayanan vəzifələr barədə fikirlərini bildirdi və konkret tapşırıqlarını verdi. Şübhəsiz ki, qarşıda duran vəzifələr də uğurla icra olunacaq və biz bu sahədə böyük inkişafın şahidi olacağıq.

***- Tahir müəllim, regionların sosial-iqtisadi inkişafı təmsil etdiyiniz Ağcabədi rayonunda özünü necə göstərir?***

- Ağcabədi rayonu sosial-iqtisadi baxımdan respublikanın ən inkişaf edən rayonlarından biridir. Rayonumuzda hazırda böyük sənaye müəssisələri tikilib istifadəyə verilir, eləcə də aqropark yaradılır. Ötən il Prezident İlham Əliyev rayonumuza səfər etdi və səfər çərçivəsində bir sıra müəssisələrin açılışını etdi. Onların sırasında çörək zavodunun, Olimpiya-İdman Mərkəzinin, Dövlət Bayraq Muzeyinin açılışını xatırlada bilərəm.

Ümumiyyətlə, Prezident İlham Əliyev dəfələrlə Ağcabədi rayonunda səfərdə olub və 20-dən çox müəssisənin, obyektin açılışında iştirak edib. Hazırda rayonda su- kanalizasiya layihəsi bitmək üzrədir. Ağcabədi respublika üzrə ən çox pambıq istehsal edən rayonlardan biridir. Bu gün rayonda elektrik enerjisi problemi yoxdur. Rayonun əksər kəndləri asfaltlaşdırılıb, qazlaşdırılıb. Cəmi bir neçə kəndə qaz çəkilməyib ki, yaxın zamanlarda bu məsələ də həll olunacaq. Bütövlükdə, Ağcabədi əhalisinin həyat səviyyəsini daha da yaxşılaşdırmaq üçün görülən işlər bundan sonra da davam etdiriləcək.

# Saxta viza ilə Azərbaycandan İrana keçmək istəyən yeddi Özbəkistan vətəndaşı saxlanılıb

***Dövlət Sərhəd Xidməti (DSX) narkotik vasitələrin qanunsuz dövriyyəsinə və qeyri-qanuni miqrasiyaya qarşı mübarizə tədbirlərini uğurla davam etdirir.***

DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, yanvarın 18-də dövlət sərhədinin mühafizə-





si tapşırıqlarını yerinə yetirən Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin sərhəd gözətçi gəmisi tərəfindən Xəzər dənizində Astara rayonu istiqamətində sahildən 7,4 mil məsafədə su səthində kustar üsulla düzəldilmiş buy (işarəverici üzücü nişan) müşahidə olunub. Buya baxış zamanı 1 ədəd bağlamada 980 qram marixuana, 1415 qram həşiş aşkar olunub. Yanvarın 26-da daxil olmuş əməliyyat məlumatı əsasında yenə də həmin istiqamətdə sahildən 6,6 mil məsafədə buya bağlanmış vəziyyətdə qəhvəyi rəngli kisədə sellofan materiala bükülmüş 2 ədəd bağlama aşkar olunub. Baxış zamanı bağlamalarda 2,9 kiloqram tiryək, 550 qram heroin və 100 qram metafitamin aşkar olunub.

Yanvarın 27-də qabaqlayıcı əməliyyat məlumatının realizəsi nəticəsində "Şaxtaxtı" sərhəd nəzarəti məntəqəsində İran İslam Respublikasının saxta vizaları ilə Azərbaycandan İrana keçmək istəyən 7 nəfər Özbəkistan vətəndaşı - 1988-ci il təvəllüdlü Olimova Maqsuda Aydınovna, 1972-ci il təvəllüdlü Mukimova Şaxlo Tolhunova, 1987-ci il təvəllüdlü Saidjanova Nigora Arifovna, 1993-cü il təvəllüdlü Baltayev Olimjan Kominjan, 1993-cü il təvəllüdlü Sanginova Maxiqexraon Muxiddinjon, 1990-cı il təvəllüdlü Axmedova Şaxnozahon Raçiddek saxlanılıb və Dövlət Miqrasiya Xidmətinə təhvil verilib. Faktlar üzrə əməliyyat və istintaq tədbirləri davam etdirilir.

# Əli Kərimli virtual aləmin virtual lideri də deyil

***Bir vaxtlar Əbülfəz Elçibəyi fağır prezident adlandıran, ona qarşı edilən haqsızlıqları, iyrənc oyunları etiraf edən Əli Kərimli keçmişdə etdiyi siyasi hiyləgərliyi bu gün də davam etdirir və son günlər varlığını sübut etmək üçün dəridən-qabıqdan çıxır. "Yurd" sədrinin siyasətçi kimi artıq yararsız olduğunu sübut etməyə ehtiyac yoxdur. Virtual aləmin "qəhrəmanı"na çevrilən Ə.Kərimli sosial şəbəkələrdə minlərlə yaratdığı saxta profillərlə, hətta Marksı belə keçib. Ona qarşı yazılan statuslarda ifadə sahiblərinin aqibəti isə mütləq "vətən xaini" adlandırılmaq damğası olur.***



Son günlər "Yurd"un lideri Əli Kərimlinin trolları, AXCP sədri Razi Nurullayevi hədəfə almaqla, ona qarşı yeni kampaniyaya başlayıblar. Özlərindən başqa heç kimi həzm edə bilməyən və bu fobiyanın təsirindən çıxa bilməyənlər iyrənc oyunlara start veriblər və heç həya etmək niyyətində də deyillər. Hakimiyyət hərisi olan Kərimli, dövlətin milli maraq və mənafelərinə zidd, yalan və böhtanlardan ibarət olsa belə, istənilən yolla qaralama kampaniyasını davam etdirməkdə israrlıdır və görünür, bununla özünün haqlı olduğunu sübut etmək, birinci müxalifətçi kimi elan etmək fikrindədir.

Bu adama sual vermək lazımdır ki, sən bu sədr olduğun müddət ərzində nə kimi faydalı işlə məşğul oldun, hansı uğurlara imza atdın ki, bu qədər iddialısan? Partiyanı ancaq öz maraqlarına xidmət edən təşkilata çevirən Kərimli nəyə nail oldu və indi də eyni strategiya ilə nəyə ümid edir? Hansı ictimai dəstəyə arxalana bilər və belə bir dəstəyin ola biləcəyinə ümidi varmı? Siyasi səhnədə nə qədər çabalamaq fikri var və artıq bu siyasətə son verilməsinin labüdlüyünü anlamırmı?

## Razi Nurullayevin açıqladıqları Kərimlinin iç üzünü ifşa edir

Vaxtilə partiyada ikinci şəxs olan insanın - Razi Nurullayevin onun haqqında açıqladıqları da Kərimlinin iç üzünü açıb tökür. Hər bir əməlində qeyri-etik və qəbul olunmamış hərəkətlərin olduğunu bildirməklə, əsl simasını ortaya qoyur. Kərimlinin bir zamanlar ən yaxın ətrafında olanlar onun hiyləgərliyini, hakimiyyət hərisliyini və məkrli olduğunu bildirməsi çox qaranlıq məqamlara aydınlıq gətirir. Artıq ən yaxın ətrafı da başa düşür və etiraf belə edir ki, uzun illər özünü müxalifət partiyası adlandıraraq xarici havadarlarından külli miqdarda qrantlar alıb, "cibini dolduran" partiya rəhbərliyindən bundan sonra da "yenilik" gözləməyə dəyməz.

R.Nurullayev bir açıqlamasında xüsusilə vurğulayır ki, Kərimli və partiya rəhbərliyi 4-5 saat davam edən iclasda onun facebook profilindəki "layk"larını saymaqla məşğuldur. Partiya işində belə bir fəaliyyət gülüncdür. Kimə nəyi sübut etmək fikrindədir "Yurd" sədri? Vacib adam olduğunu nümayiş etdirməyə çalışırsa, yanılır. Onun bu yalanlarına, saxta profillərinə inanan kimsə yoxdur və layk dilənçiliyi də artıq sirr deyil. Sosial şəbəkələrdə bəzi texniki məsələləri, statistik göstəricilərə dəyişiklik edə bilən mexanizmi də nəzərə alsaq, rəqəmlərin şişirdilməsinə zərrə qədər şübhə qalmır. İclaslarda bunun əvəzində, öz gələcək fəaliyyət istiqamətlərilə bağlı ideyalar müzakirə edilmirsə, deməli, onları xalqın taleyi yox, öz şəxsi mənfəətləri düşündürür. Real müstəvidə fəaliyyət sərgiləməkdə bacarıqsızlıq və uğursuzluğunu virtual müstəviyə daşımaqla Kərimli heç nəyə ümid edə bilməz. Məqsəd görüntü yaratmaq və real olmayanı şişirtməklə, yenə də özünün güya ki, çox sayda tərəfdarının olmasına kimlərisə inandırmaqdır. Amma yalançı profillər, trollar və şişirtmə statistik göstəricilərlə Ə.Kərimli yalnız özünü aldada bilər.

## Ona başqalarının gözündə çöpü yox, öz gözlərində tiri görmək tövsiyə olunur

R.Nurullayevlə Kərimlinin arasında konflikt, uzun müddətdir ki, davam edir və bu gedişlə tərəflərin münasibətində dəyişikliyin olacağına güman da yoxdur. Biz zaman bir yerdə fəaliyyət göstərən bu iki şəxsin çoxdandır ki, yolları ayrılıb və Nurullayev Kərimlini daim saxta profillərlə ictimaiyyəti aldatmaqda, hiyləgərlikdə və onunla fikir ayrılığı olan insanları təhqir etməkdə ittiham edir. Məlum məsələ ilə bağlı həbs olunan Gözəl Bayramlını isə, AXCP-nin maliyyə boğçası adlandırır və ümumiyyətlə, ətrafındakılara antipatiyasını gizlətmir. Kərimlinin ətrafındakıları ona az qala "sitayiş etmək"də günahlandıraraq, partiyada avtoritarizmin hökm sürdüyünü də ifşa edərək, başqalarının gözündə çöpü yox, öz gözlərində tiri görməyi tövsiyə edir. Ə.Kərimlinin xarici qüvvələrlə iş birliyini də gizlətməyən Nurullayev onun siyasi fəaliyyətinin sonu barədə də proqnoz verir.

Ə.Kərimlinin iştirak etdiyi siyasi proseslər dövründə apardığı yanlış siyasətin acı nəticəsi olaraq, AXCP bu günə qədər səkkiz yerə parçalanıb. Asim Mollazadə, Qüdrət Həsənquliyev, Fazil Qəzənfəroğlu, Mirmahmud Mirəlioğlu və nəhayət, R.Nurullayev və başqalarının AXCP-dən kənarlaşaraq, yeni qurum yaratması, onu deməyə əsas verir ki, Kərimli iddiasında olduğu liderlik keyfiyyətlərinə və bacarıqlarına malik deyil və idarəetməni əlində saxlamaq iqtidarında deyil. Heç vaxt belə bir iqtidarı olmayıb da. Hadisələrin gedişi bir daha, ondan xəbər verir ki, özünü lider adlandırmağa çalışan bu hiyləgərin bundan sonra da liderlik arzusu elə arzu olaraq qalacaq. Çünki idarəçilik və təşkilatçılıq bacarığı olmayan birinin liderlik niyyəti gerçəklikdən çox uzaqdır. Liderdə elə qabiliyyətlər, elə bacarıqlar cəmlənməlidir ki, təşkilatı formalaşdıraraq onu hədəfə doğru aparsın, parçalanmalara yox. Biz isə bunun əksini müşahidə edirik və parçalanmalar bu partiya sədrində liderlikdən əsər-əlamət olmadığını təsdiqləyir. Bu baxımdan, partiyanın dağıması labüddür və bu heç cür təəccüb doğura bilməz.

## AXCP sədrinin yanında sağlam qüvvə yoxdur

Bu vaxta qədər Kərimlinin yanında bir "matros" Faiq qalmışdı, onu da qaçaqmalçılıq məsələləri ilə əlaqədar həbs etdilər. G.Bayramlının özünün də sərhəd-yoxlama məntəqəsində qanunsuz əməlinə görə həbs edilməsi faktı ictimaiyyətə bəllidir. AXCP sədrinin, göründüyü kimi, yanında bir dənə də olsun sağlam qüvvə yoxdur və qeyri-sağlamlar da ya parçalanaraq onu tərk etməyi vacib sayır, ya da öz qanunsuz əməlinin girovuna çevrilərək, ondan uzaqlaşır. Qaldı bir Cəmil Həsənli, ondan Kərimli bir kart kimi bu vaxta qədər istifadə edirdisə, görünür, indi əlinə-ayağına dolaşdığı üçün səhnədən uzaqlaşdırmaq qərarına gəlib. Heç Həsənlinin özü də qondarma "Milli Şura"da formal sədrlik kürsüsündə qalmaqda israrlı deyil və bu qurumdan uzaqlaşmaq qərarındadır. Əslində, "şura" sədrinin təkcə qurumdan deyil, görünür, Kərimlidən, onun iyrənc siyasətindən, hiyləgərliyindən uzaqlaşmaq və yaxa qurtarmaq fikri var.

Sosial bazası yox səviyyəsində olan, "mitinqlərinə" donorlarından maliyyələşdirmə yolu ilə "beyniqanlı" gəncləri cəlb edən, mübarizələrini söyüş, təhqir, qarayaxma, insan şəxsiyyətini alçaltma yolu ilə və virtual müstəvi üzərində belə formal, aldadıcı şəkildə quran AXCP iki cəbhəyə bölünməklə, olmayan nüfuzunu da itirməkdədir. Xalqa bu vaxta qədər faydası dəyməyən, üstəlik, parçalanmış partiya və yalnız öz şəxsi mənfəətini güdən "lider", yaxud "liderlər" lazım deyil. Özünü lider adlandırmaq həvəsində olan, reallıqdan çox uzaq fəaliyyət göstərən virtual aləm qəhrəmanları ictimai dəstəyə malik olmadıqlarını çox yaxşı başa düşürlər və məhz elə buna görə də, sosial şəbəkələri fəliyyət müstəvisi hesab edirlər. Virtual aləmin virtual lideri belə olmaq üçün hiyləgərliyə əl atan Kərimli trollarla, layk dilənçiliyi ilə, əslində, ictimai dəstəyə inanmadığını təsdiq edir. "Yurd" sədri yalnız, bu məqamda, haqlıdır və bilir ki, xalqın və ictimaiyyətin dəstəyini heç vaxt qazana bilməyəcək.

***İnam HACIYEV***

# "Bunları Əli Kərimlinin son çırpıntıları hesab edirəm"



"Ümumiyyətlə, Əli Kərimli tükənmiş bir siyasətçidir. Azərbaycan hakimiyyətinin getdikcə daha da möhkəmlənməsi, xüsusilə xalq-hakimiyyət vəhdətinin möhkəmlənməsi, bütövlükdə xalqın cənab Prezidentə etimadının ən yüksək yerə çatması ona gətirib çıxarıb ki, Əli Kərimli kimi siyasətçilər faktiki olaraq meydanda boş, təkbaşına qalıblar". Bunu SİA-ya açıqlamasında siyasi şərhçi Azər Həsrət deyib. Onun sözlərinə görə, bu adamlar öz gücsüzlüklərinin fərqindədirlər: "Ona görə də onlar yeni üsullar axtarıb tapıb Azərbaycan hakimiyyətinə qarşı xalqı ayaqlandırmaq istəyirlər. Amma xalq da siyasi məsələlərdə kifayət qədər təcrübəlidir və bu adamlara adanmır. Ona görə də onlar özlərindən çıxıb təhqirlərə əl atırlar. Bu insanlar faktiki olaraq Azərbaycan hakimiyyətini gözdən salmaq üçün cürbəcür yaramaz adamların imkanlarından istifadə edirlər. Söyüş, təhqir, qaralama, gözdənsalma və s. kimi əməllərə əl atırlar ki, bəlkə nəyəsə nail ola bilərlər. Amma bu adamlar bir şeyi unudurlar ki, Azərbaycan xalqı təhqirlə, söyüşlə, hədələməklə, şantajla kimlərisə hakimiyyət başına gətirəcək xalq deyil. Yəni Azərbaycan seçicisi, ölkəmizdə siyasətə bu və ya digər şəkildə bağlılığı olan normal insanlar təhqiri, söyüşü, şantajı heç vaxt yaxın buraxmayıblar və bundan sonra da buraxmayacaqlar.

Mən bunları Əli Kərimlinin son çırpıntıları hesab edirəm. Bu adam uğur qazana bilməyib və düşünür ki, bəlkə bu yolla hansısa bir şəkildə uğur qazana bilər. Hesab edirəm ki, onun bu çırpıntıları heç bir nəticə verməyəcək. Bu gün Azərbaycan seçicisi, vətəndaşı normal dildə danışan, normal siyasi münasibətlər quran insanların arxasınca getməyə meyillidir. Ona görə də Azərbaycan xalqı bu gün Azərbaycan hakimiyyətinin arxasınca gedir. Çünki Azərbaycan hakimiyyəti təhqirlə, şantajla, böhtanla məşğul deyil".

# Avropa Komissiyası Bakı Limanının gələcək inkişafı üçün 1 milyon avro texniki yardım ayırıb



Avropa Komissiyası Bakı Beynəlxalq Dəniz Ticarət Limanının gələcək inkişafı üçün 1 milyon avro texniki yardım ayırıb.

AZƏRTAC xəbər verir ki, bu barədə Avropa Komissiyasının nəqliyyat və mobillik üzrə baş direktoru Henrik Hololey jurnalistlərə açıqlamasında deyib. O bildirib ki, Bakı Limanı Avropa və Asiya arasında ticarət dövriyyəsində mühüm yer tutur. Bakı Limanı və bir sıra beynəlxalq dəhlizlərin Azərbaycandan keçməsi buranı tranzit ölkəyə və logistika mərkəzinə çevirir. Azərbaycan bu sahədə mühüm planlar üzrə çalışır. Bakı-Tbilisi-Qars dəmir yolunun istismara verilməsi də bu planlara daxildir və mühüm addımdır. H.Hololey qeyd edib ki, Bakı limanının fəaliyyəti və Bakı-Tbilisi-Qars dəmir yolu xətti logistika və nəqliyyat xərclərinə qənaət etməyə imkan yaradır. Bu alternativ marşrut ilə yüklər daha tez və ucuz başa gələ bilər. Bu işdə Bakı Limanının rolu xüsusilə qeyd edilməlidir.

# "Sarkisyan erməni diasporu üçün artıq yükə çevrilib"

"Erməni diasporunun Ermənistan prezidenti ilə açıq savaşa girməsi artıq Sarkisyan dövrünün bitdiyinin göstəricisidir". Bunu SİA-ya açıqlamasında Qarabağ Azadlıq Təşkilatının (QAT) sədri Akif Nağı deyib. Onun sözlərinə görə, bu gün Sarkisyan kimi adamlardan erməni diaspor mərkəzləri istifadə edirlər və müəyyən məqamdan sonra onu xərcləyib, qurtarıb bir kənara atırlar: "Bu da təbii olan haldır. Çünki onlar artıq yeni namizəd üzərində düşünür. Sarkisyan onlar üçün artıq yükə çevrilib və ondan xilas olmaq istəyirlər. Heç kimə sirr deyil ki, Sarkisyan da hansısa formada hakimiyyətdə qalmaq istəyir. Bu ilin martında Ermənistanda keçiriləcək prezident seçkilərinə yeni namizəd elə Sarkisyanın partiyasından irəli sürülüb və onun adamıdır. Amma görünür erməni diasporu artıq fikrini dəyişib. Ola bilsin ki, bu iki Sarkisyanı bir-birindən ayırsınlar".

A.Nağı əlavə edib ki, ermənilər bütün məqamlardan istifadə edirlər ki, öz ağır vəziyyətdə olduqlarını, yazıqlıqlarını şikayət etsinlər. Bu, bir növ erməni xəstələyidir. Onlar ən müxtəlif vasitələrdən istifadə edirlər ki, hazırki status-kvo qorunub saxlansın".

# Söz və mətbuat azadlığı dövlətimizin demokratik inkişaf göstəricisidir

***Son illərdə Azərbaycan Ulu Öndər Heydər Əliyevin siyasətinə sadiq qalaraq, uğurla və inamla inkişaf edib. Bu gün Azərbaycan güclü ölkəyə çevrilibdir. İstənilən sahədə əldə olunan uğurlar bunu deməyə əsas verir. İstər ölkə daxilində, istərsə də beynəlxalq miqyasda əldə olunun nailiyyətlər və qazanılan nüfuz ölkə gerçəkliklərinə söykənir.***

Bu gün Azərbaycanın beynəlxalq iqtisadi qurumlar tərəfindən yüksək qiymətləndirilməsi və Davos Forumunun son hesablamalarında iqtisadiyyatların rəqabət qabiliyyətliliyinə görə, Azərbaycanın dünya miqyasında 35-ci yerdə olması ölkəmizin nailiyyətini əsaslandıran amildir. Azərbaycan Prezident Cənab İlham Əliyev çıxışlarının birində bildirib ki, bu rəqəm deməyə əsas verir ki, bizim iqtisadi siyasətimiz mükəmməldir:"Bu, ölkəmizin ümumi inkişafında və insanların rifah halının yaxşılaşmasında öz əksini tapır. Energetika, nəqliyyat sahələrində görülmüş işlər haqqında deyə bilərəm ki, son vaxtlar bir çox yeniliklər baş vermişdir. Yəni bir sözlə, Azərbaycan bütün sahələr üzrə, o cümlədən, hərbi-texniki sahədə böyük uğurlara nail ola bilibdir".

Əlbəttə ki, ölkəmiz böyük uğurlara nail olub, Azərbaycan güclü bir dövlətə çevrilib. Nəqliyyat sahəsində, müasir texnologiyaların inkişafında yeni uğurlara imza atıb. Bu yaxınlarda Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi Azərbaycanın uğurlarına yeni bir nailiyyət əlavə etdi. Eyni zamanda, "Şimal-Cənub" Nəqliyyat Dəhlizinin yaradılması istiqamətində əlavə addımlar atılacaq. Azərbaycan Prezidenti bu iki layihənin Azərbaycanı əvəzolunmaz nəqliyyat mərkəzinə çevirəcəyini qeyd edib: "Bu, bizim həm siyasi, həm iqtisadi maraqlarımızın təmin edilməsində çox mühüm rol oynayacaq".

### SÖZ VƏ MƏTBUAT AZADLIQLARININ İNKİŞAFI RESPUBLİKANIN DEMOKRATİKLƏŞMƏSİ PROSESİNİN VACİB AMİLİDİR

Bu gün müstəqillik yolu ilə inamla irəliləyən və hərtərəfli inkişaf edən Azərbaycanda söz və mətbuat azadlığının təmin olunması istiqamətində də ciddi addımlar atılır, bu sahənin inkişafı ilə bağlı bir sıra uğurlu layihələr həyata keçirilir. Söz və mətbuat cəmiyyətin və dövlətin demokratik inkişaf göstəricisi



kimi qəbul olunur. Kütləvi informasiya vasitələri, qəzetlər, jurnallar, teleradiolar, informasiya agentlikləri və informasiyanın müntəzəm formada yayıldığı digər vasitələr cəmiyyətdə ictimai fikri və sosial fəallığı formalaşdırmaqla yanaşı, həm də onları istiqamətləndirir. Kütləvi informasiya vasitələri dünyada demokratiya və informasiya azadlığının mühüm vasitəsi hesab edilir. Respublikamızın ictimai-siyasi, sosial-iqtisadi həyatında demokratik dəyərlərin daha geniş şəkildə bərqərar olması, müstəqil dövlətçiliyin siyasi, iqtisadi və hüquqi dayaqların möhkəmlənməsi prosesi sürətləndikcə, Azərbaycan dövləti söz və mətbuat azadlıqlarının qanunvericilik bazasının demokratikləşdirilməsi istiqamətində yeni-yeni addımlar atır.

Azərbaycan Prezidenti İlham Əliyev söz və mətbuat azadlıqlarının inkişafını respublikanın demokratikləşməsi prosesinin vacib amili kimi dəyərləndirir. Söz və mətbuat azadlığını yüksək qiymətləndirən ölkə Prezidenti çıxışlarının birində belə deyib: "Bütövlükdə, söz və informasiya azadlığı hər bir ölkə üçün, ölkənin inkişafı üçün ən vacib olan məsələlərdən biridir. Söz və informasiya azadlığı, demokratiyanın inkişafı və hüquqi dövlətin qurulması Azərbaycanda çox vacib olan məsələlərdir. Mən hesab edirəm ki, bu sahədə ölkəmiz çox böyük və uğurlu yol keçmişdir".

### AZƏRBAYCANDA BÜTÜN FUNDAMENTAL AZADLIQLAR TƏMİN OLUNUR VƏ DÖVLƏT HƏR BİR KƏNDƏ GENİŞZOLAQLI İNTERNETİN ÇƏKİLMƏSİ İLƏ BAĞLI BÖYÜK PROQRAM HƏYATA KEÇİRMİŞDİR

Bu gün ölkəmizdə mətbu nəşrlərin sərbəst fəaliyyətinə və jurnalistlərin öz iradələrini azad şəkildə ifadə etmələrinə bütün imkanların yaradılmasına tam şərait olduğu məqamda, Azərbaycan mətbuatı ətrafında bəzi hallarda qərəzli fikirlər də yer alır. Sifarişli və qərəzli ifadələr heç bir əsası olmadan irəli sürülür. Bu günlərdə Davosda Dünya İqtisadi Forumunun "Strateji baxış: Avrasiya" adlı interaktiv iclasında Azərbaycan Prezident Cənab İlham Əliyevə aparıcının "Sizin ölkə mətbuat azadlığı ilə bağlı tənqid olunur" fikrinə ölkə başçısı münasibət bildirərkən deyib ki, bu tənqidin əsası yoxdur: "Məsələnin mahiyyətinə baxdıqda, məlum olur ki, Azərbaycanda bütün fundamental azadlıqlar, o cümlədən, mətbuat azadlığı təmin edilir. Mətbuat tamamilə azaddır. Azərbaycan əhalisinin 80 faizi internet istifadəçisidir. İnternetin azad, senzuranın olmadığı və əhalinin mütləq əksəriyyətinin internet istifadəçisi olduğu halda, mətbuat azadlığının məhdudlaşdırılması haqqında danışmaq əsassızdır". Cənab Prezident Azərbaycan mətbuatına qarış bunun qərəz və qeyri-obyektiklik olduğunu bildirib. "Bunun siyasi səbəbləri var. Bunun reallıqla heç bir əlaqəsi yoxdur" - deyən Cənab Prezident vurğulayıb ki, Azərbaycanda bütün fundamental azadlıqlar təmin olunur və dövlət hər bir kəndə genişzolaqlı internetin çəkilməsi ilə bağlı böyük proqram həyata keçirmişdir: "Bu təsnifat olduqca qərəzli yanaşma üzərində qurulub. Hərdən bu yanaşma bədxah olur. Bunlar Qərbdə müəyyən siyasi mərkəzlərin fəaliyyətinin məhsuludur".

Dövlət başçısı Azərbaycanın müstəqil siyasət yürütdüyünü və bu siyasətin milli maraqlarımıza söykəndiyini də diqqətə çatdırıb.

Həqiqətən də, bu gün ölkəmizin artan imkanları kütləvi informasiya vasitələrinin, o cümlədən, milli mətbuatımızın inkişafı üçün kompleks tədbirlərin həyata keçirilməsinə şərait yaradıb. Bu gün ölkəmizdə azad cəmiyyətin formalaşmasını və cəmiyyətdə gedən prosesləri yüksək qiymətləndirən dövlət başçısı bu məsələdə mətbuatın rolunun əhəmiyyətli olduğunu çıxışlarında vurğulayıb. Bu gün ölkədə yüzlərlə qəzet-jurnal, televiziya kanalı azad və sərbəst şəkildə fəaliyyət göstərir. Azərbaycan Prezidenti İlham Əliyevin humanist siyasətində mətbuata diqqət və qayğı, o cümlədən, azad sözün inkişafına dəstək diqqətdədir. Məhz milli mətbuatımızın yaranmasının 142-ci ildönümü ərəfəsində jurnalistlər üçün tikilmiş 255 mənzilli binanın istifadəyə verilməsi jurnalistlərə göstərilən diqqətin daha bir nümunəsi oldu. Ölkə başçısı, bununla bir daha göstərdi ki, müstəqil medianın inkişafı, azad və demokratik fikrin qorunması dövlətimiz üçün prioritet məsələdir. Həmin mərasimdə Azərbaycan Prezidenti jurnalistlərə mənzillərin bölüşdürülməsində ədalət prinsipinin qorunmasının mühüm şərt olduğunu vurğulayaraq bildirib: "Bu binalarda yaşayan və bundan sonra yaşayacaq jurnalistlər müxtəlif siyasi spektrə aiddir və burada da heç bir ayrı-seçkiliyə yol verilmədi. Müxtəlif siyasi baxışları və müxtəlif partiyaların üzvləri olan insanlar burada bir yerdə bir ailə kimi yaşayacaqlar. Əslində, Azərbaycan cəmiyyəti də bu istiqamətdə inkişaf edir. Azərbaycanda milli həmrəylik var. Azərbaycan cəmiyyəti vahid amal ətrafında birləşib. Bizdə olan inkişaf, sabitlik, əmin-amanlıq, əlbəttə, bu gün, siz də yaxşı bilirsiniz ki, dünyanın bir çox yerlərində öyrənilir, bəzən təəccüblə qarşılanır və bunun da çox sadə səbəbi var. Çünki Azərbaycanda çox gözəl və demokratik şərait var. Azərbaycanda iqtisadi inkişaf var. Azərbaycan müstəqil siyasət apararaq həm bölgədə, həm dünyada öz mövqelərini möhkəmləndirib. Bizim təsir imkanlarımız genişlənir, böyüyür və Azərbaycan xoşniyyətli siyasət aparır. Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşının və Azərbaycan dövlətinin maraqları dayanır".

Bu, bir reallıqdır ki, dünyanın heç bir ölkəsində mətbuata bu səviyyədə diqqət və qayğıya rast gəlinmir. Məhz bu istiqamətdə də Azərbaycan dövlətinin özünəməxsus humanitar siyasəti və öz dəst-xətti var.

***Zümrüd BAYRAMOVA***

## Qarın yağması Qusara gələn turistlərin sayını 3-4 dəfə artırıb



***Şimal bölgəsinə qarın yağması bölgəyə gələn turistlərin sayına ciddi təsir edib. Son üç gündə Qusar rayonuna adi günlərlə müqayisədə 3-4 dəfə çox turist gəlib. Qusar Turizm İnformasiya Mərkəzindən AZƏRTAC-ın bölgə müxbirinə bildirilib ki, rayondakı otel və qonaq evlərinin 90 faizi əvvəlcədən sifariş edilib. Yerli turistlərin sayının çoxalmasına səbəb rayonun ağ örpəyə bürünməsi ilə yanaşı, hazırda təhsil müəssisələrində qış tətilinin olmasıdır.***

Qusarda yerləşən "Şahdağ" Turizm Mərkəzinə gələn qonaqların sayında da artım müşahidə olunur. Turizm Mərkəzinin ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Gülnar Mustafayeva AZƏRTAC-n bölgə müxbirinə bildirib ki, kompleks həftəiçi hər gün 600-1000 arası qonaq qəbul edir. Şənbə-bazar günlərində isə bu rəqəm 2500-3500 nəfərədək yüksəlir.

Otellərdə yer tapa bilməyən turistlər isə ev turizmi ilə məşğul olan yerli sakinlərə müraciət edirlər. Qusarda evlərin bir gün üçün kirayə qiyməti şəraitindən asılı olaraq 20-100 manat arasında dəyişir. Mərkəzdə qeydiyyatdan keçən bu evlərin bir çoxunda qonaqlara ödəniş müqabilində gündə 3 dəfə yemək təqdim olunur. Turizm İnformasiya Mərkəzindən bildirilib ki, rayona gələn əcnəbi turistlər arasında Rusiya, Türkiyə və Birləşmiş Ərəb Əmirliklərindən olanlar üstünlük təşkil edir. Xarici qonaqlar ekoturizmə daha çox maraq göstərirlər. Havanın qarlı, məktəblilərin də qış tətilində olması səbəbindən hələ yaxın bir neçə gündə də bölgəyə turist axınının olacağı proqnozlaşdırılır.

## Daha iki kənd terrorçulardan azad olunub

Türkiyə ordusunun Suriyanın Afrin bölgəsində icra etdiyi "Zeytun budağı" əməliyyatında Süleyman Halil və Sati Şaği kəndi terrorçulardan azad olunub. SİA-nın Türkiyə mətbuatına istinadən verdiyi məlumata görə, Türkiyə Silahlı Qüvvələrinin apardığı "Zeytun budağı" əməliyyatı çərçivəsində Afrinin qərbindəki strateji yüksəklikdə atışma zamanı 15 terrorçu zərərsizləşdirilib. Beləcə əməliyyatın 11-ci günündə Afrində 17 kənd, 6 qəsəbə və 5 strateji təpə daxil olmaqla 23 hədəd ələ keçirilib.

## Türkiyədə yol qəzası nəticəsində 8 nəfər həlak olub



Yanvarın 30-da səhər saatlarında Türkiyənin Van-Başkale avtomagistralında ağır yol-nəqliyyat hadisəsi baş verib. Mikroavtobusun böyük tutumlu yük avtomobilinə çırpılması nəticəsində 8 nəfər həlak olub, 2 sərnişin yaralanıb. Sərnişinlərdən birinin vəziyyəti ağırdır.

## Azərbaycan 2017-ci ildə Rusiya və İrandan 2,1 milyard kubmetr təbii qaz idxal edib

Keçən il Azərbaycan Rusiya və İrandan ümumilikdə 2 milyard 109,9 milyon kubmetr təbii qaz idxal edib. AZƏRTAC xəbər verir ki, bu barədə Energetika Nazirliyinin 2017-ci il üzrə "Yanacaq-energetika kompleksində fəaliyyətə dair" hesabatında deyilir. Bildirilir ki, ötən il ölkəyə Rusiyadan Şirvanovka-Qazıməmməd boru kəməri ilə 349,3 milyon kubmetr, İrandan isə Astara-Qazıməmməd kəməri ilə 1 milyard 490,1 milyon kubmetr və Culfa ölçü qovşağından-Naxçıvan Muxtar Respublikasına 270,5 milyon kubmetr təbii qaz idxal olunub.

# Yerevan rus silahlarının Bakıya çatdırılmasına mane ola bilməyəcək qədər acizdir

*Bu, erməni ictimai-siyasi dairələrinin fikridir!*

***Ermənistan parlamentinin "Yelk" blokundan olan Edmon Marukyan bəyan edib ki, Rusiyanın Azərbaycanı silahla təchiz etməsi məsələsi, məhz parlamentdə müzakirəyə çıxarılmalıdır. Bu barədə "Iragir.am" saytının siyasi şərhçisi Akop Badalyan öz təhlilində yazır. Belə ki, Azərbaycan Ordusunun istər regionda, istərsə də dünya miqyasında güclülər sırasında yer alması düşmən mediasında, habelə, işğalçı ölkənin ictimai-siyasi dairələrində ən çox danışılan mövzulardandır. Bu baxımdan, Ermənistanın iqtisadi tənəzzülə uğraması ilə yanaşı, siyasi böhran səviyyəsindən çıxa bilməməsi, o cümlədən, erməni ordusunda yaşanan bəlli olaylar daim diqqət mərkəzində qalmaqda davam etməkdədir.***





**"Prezident İlham Əliyev bəyan edir ki, yeni razılaşmaların əldə olunması üçün heç bir maneə yoxdur, demək, Ermənistan da yoxdur"**

Erməni şərhçi bu ərəfələrdə Azərbaycan tərəfinin Rusiyadan növbəti hərbi texnika alması və Qarabağ cəbhəsinə göndərməsi ilə bağlı məlumatı xatırladaraq, Rusiyanı ittiham hədəfinə alıb. "Rusiya isteblişmentinin hansı hissəsinin bu cür siyasət yürütməsi kimsədə maraq doğurmur, halbuki Azərbaycana silahı Rusiya verir" yazan Badalyan bu arada Serj Sarkisyanın da Rusiyanı ittiham edən fikirlərini xatırladıb. Belə ki, Sarkisyan cəbhə xəttində, (yəni işğal altında qalan Azərbaycan ərazilərində-qeyd bizimdir) öldürülən əsgərlərin həyatlarına, məhz rus silahları vasitəsilə son qoyulduğunu demişdi.

Beləliklə, erməni şərhçi Rusiyanın daha öncəki öhdəliklərinin yerinə yetirilib-yetirilməməsində, yaxud yeni öhdəliklər götürməsində fərqin olmadığını yazır və qarşı tərəfi ittiham edərək, onu da bildirir ki, Rusiya müvafiq mövqe sərgiləsəydi, bu zaman yeni sazişlər olmaya da bilərdi.

Ancaq məsələ ermənilərin Rusiyanı ittiham etmələri bitmir. Daha maraqlı məsələ Azərbaycan Prezidenti İlham Əliyevin Rusiya ilə bu məsələdə yeni sazişlərin imzalana biləcəyi ilə bağlı verdiyi bəyanatıdır. Bu baxımdan, erməni şərhçi yazır. SİTAT: "Ancaq İlham Əliyev bəyan edir ki, yeni razılaşmaların əldə olunması üçün heç bir maneə yoxdur, demək, Ermənistan da yoxdur. Bununla yanaşı, Ermənistanda belə münasibət formalaşıb ki, Yerevan rus silahlarının Bakıya çatdırılmasına mane ola bilməyəcək qədər acizdir. Əlavə olaraq, qeyd olunur ki, mövcud vəziyyətdə Ermənistan ucuz silah alır, yəni bunu "qiyməti öldürmək" üçün edir. Təsəvvürə gətirmək belə çətindir ki, erməni dairələri Rusiyanın müttəfiqliyə əks olan siyasətinə niyə bu qədər etinasız yanaşırlar. Həmçinin, Ermənistanın mövcud hakimiyyətinin Rusiya-Azərbaycan arasında əldə olunmuş razılaşmanı pozmaq gücündə olduğunu da təsəvvürə gətirmək çətindir".

**Bu, həm də müharibə qanunudur - işğal etmə və öldürülmə tezisi baxımından!**

Göründüyü kimi, Akop Badalyan ölkə hakimiyyətinin yarıtmaz olduğunu qeyd edir və müttəfiq olmasına baxmayaraq, Rusiyanın Azərbaycanla hərbi sahədəki əməkdaşlığının vüsət aldığı dövrdə Sarkisyan rejimini çarəsizlikdə günahlandırır. Müəllif aprel müharibəsində baş verən məğlubiyyət və s. olaylara da toxunaraq, bütövlükdə, Ermənistan hakimiyyətinin uçuruma doğru sürətlə yuvarlandığından bəhs edir. Ancaq buna baxmayaraq, Sarkisyan rejiminin Rusiyaya qarşı çıxmalı olduğunu yazır və aşkar erməni həyasızlığı nümayiş etdirərək, rus silahları ilə "ermənilərin öldürüldüyünü" iddia edir. Halbuki Badalyan özü də yaxşı anlayır ki, təmsil elədiyi ölkənin siyasi və hərbi dairələri Azərbaycan ərazilərini işğal ediblər, işğalçı və təcavüzkar erməni hərbçiləri bu torpaqlardan geri çəkilməyənə qədər, hansı silahla olursa-olsun, istər Azərbaycanın özünün istehsal etdiyi, istərsə də digər aparıcı silah istehsal edən ölkələrin silahları ilə öldürüləcəklər. Yəni bu, həm də müharibə qanunudur - işğal etmə və öldürülmə tezisi baxımından!

**"Parlamentdə çıxışlar edib, Rusiya səfirliyinə məktubmu göndəriləcək? Çətin ki, erməni parlamentində kimsə bu məsələdə özünü qabağa versin"**

Nəticədə, şərhinin əvvəlində "Yelk" blokundan olan deputat Edmon Marukyanın Ermənistan parlamentində Rusiyanın Azərbaycanı silahla təchiz etməsi məsələsinin müzakirəyə çıxarılması tələbini xatırladan Akop Badalyan yazır ki, erməni deputat bununla yanaşı, inflyasiya faktını da önə sürərək, küçələrə çıxmağın vaxtının çatdığını deyib. Ancaq əsas məsələnin silah təchizatı ilə bağlı olduğunu bildirib. "Bu mövqe özünü necə göstərə bilər?"-yazan şərhçi qeyd edir: "Parlamentdə çıxışlar edib, Rusiya səfirliyinə məktubmu göndəriləcək? Çətin ki, erməni parlamentində kimsə bu məsələdə özünü qabağa versin. Ancaq "Yelk" bununla dayanmamalıdır və blok parlamentdən dəstək ala bilməsə, bu zaman insanların küçələrə axışaraq, Rusiya səfirliyi qarşısında etirazlarını təmin etməlidir".

Beləliklə, fakt budur ki, hətta Ermənistan parlamentində hər hansı qüvvə Rusiyaya qarşı çıxış etsə belə, dəstək ala bilmir. Çünki bu ölkənin rəhbəriliyindən tutmuş, ən xırda məmuruna qədər hər kəs Moskvanın nökərləridirlər. Ortaya çıxan səs-küylər, xüsusilə, Rusiyanın Azərbaycanı silahla təchiz etməsinə qarşı ara-sıra qaldırılan səslər isə, sadəcə, görüntüdür. Son olaraq isə, belə nəticəyə gəlmək mümkündür ki, Ermənistan növbəti müharibənin başlayacağından ciddi şəkildə ehtiyat edir və qorxur. Çünki bu dəfə onlar üçün aprel müharibəsindən daha ağır nəticələr ola bilər.

*Rövşən NURƏDDİNOĞLU*



## Əli Kərimlinin iki aylıq "hakimiyyəti"

RÖVŞƏN
rovsen.rasulov@mail.ru

***Ən xırda məişət problemini belə siyasiləşdirərək, onu qondarma siyasi dividendinə yazmağa cəhd edən AXCP sədri Əli Kərimli bu dəfə də öz köhnə şakərindən qalmayıb. Daha doğrusu, indi də onu birdənbirə Bayıl ərazisində, az qala bir əsrdir ki, yaranmış və hazırda bu problemin aradan qaldırılması istiqamətində dövlət tərəfindən ardıcıl iş aparılan sürüşmə zolağı "maraqlandırmağa" başlayıb. İndi belə bir sual yaranır ki, əcəba, Ə.Kərimli iki aylıq "hakimiyyəti" zamanı nə hacət törədibmiş ki, guya nəyinsə qarşısını alıb? Əlbəttə, bütün bunlar bir manipulyasiyadır və AXCP sədrinin belə oyunbazlıqları hər kəsə kifayət qədər bəllidir.***

### Əli Kərimli özü-özünü, necə deyərlər, "baqaja" qoyub

Ancaq məsələ həm də ondadır ki, Ə.Kərimli bu günə qədər xımır-xımır yediyi pulların qaynağını və mənbəyini açıqlamayıb. Bəllidir ki, cəbhəçi sədr uzun müddət Vətən və dövlət maraqlarını xarici qüvvələrə satıb və qazancının bir hissəsi, hətta çox hissəsi oradandır.

Lakin bu arada Kərimli özü-özünü, necə deyərlər, "baqaja" qoyub. İki aylıq "hakimiyyətini" xatırlatmaqla, korrupsiya və rüşvət aldığını, hətta daha ağır cinayətlərə əl atdığını dolayısı ilə etiraf edib. Məhz bu amili nəzərə alaraq, onun hazırda yediyi pulların digər hissəsinin də dövlət müşaviri vaxtında qazandığı oğurluq pullar olduğunu deyə bilərik.

### Kolumbiyanın ən rüşvətxor məmurları Əli Kərimlinin yanında toya getməliymiş!

Bu gün özünü "aydan-arı, sudan duru" göstərən Ə.Kərimli hakimiyyətə yiyələnər-yiyələnməz, öz arvadını o zamankı prezident aparatında yüksək vəzifəyə təyin etdiyini də unudub. Maraqlıdır, nəyə görə bunu demir və etiraf etmir ki, onun iki ayda aldığı rüşvətləri heç korrupsiya burulğanında cövlan edən Kolumbiyadakı ən rüşvətxor məmurlar belə almayıb? Hətta iddia edə bilərik ki, Kolumbiyanın ən rüşvətxor məmurları Əli Kərimlinin yanında toya getməliymiş!

Məsələ bəsitdir. Yəni o qədər bəsitdir ki, indi bu bəsitliyi də xırdalamağa və izah etməyə ehtiyac qalmır. Sadəcə, fakt budur ki, Ə.Kərimli öz "təmizliyini", ya da natəmiz insan olduğunu heç bir əsasla sübuta yetirə bilməz! Ta o zamana qədər ki, vaxtilə Britaniyada oxutduğu övladına xərclədiyi pulların mənbələrini, arvadına açdırdığı butiklərin xərclərinin, Bakının müxtəlif yerlərində tikdirdiyi villaların pullarının əldə etdiyi kökləri və mənbələrini deməyənə qədər. Desin, biz də bilək ki, o, reallıqda "təmiz" adamıymış-filan. Amma deməyəcək, hətta bu günə qədər gətirdiyi bəhanələri də yersiz və sübutsuzdur. Ona görə də, yaxşı olardı ki, burnunu hara və necə gəldi "soxmasın". Yoxsa bir gün onu da itirə bilər...

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

31 yanvar 2018-ci il

# "Dağıdıcı ünsürlər eyni mərkəzdən idarə olunurlar"

## *Hafiz Hacıyev: "Fevralın 1-də Aslan İsmayılov məhkəməyə əli, qolu bağlı şəkildə gətiriləcək"*



Müsahibimiz Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyevdir

***- Hafiz bəy, özünü hüquqşünas kimi təqdim edən Aslan İsmayılovun milli maraqlara zərbə vurmağa xidmət edən fikirlərlə çıxış etməsində Əli Kərimlinin, İsa Qəmbərin və digər müxaliflərin rolu və dəstəkləri olduğunu demək olarmı?***

- Əvvəlcə onu qeyd edim ki, Səbail Rayon Məhkəməsindən öncə, Aslan İsmayılov haqqında Binəqədi Rayon Polis İdarəsi tərəfindən xuliqanlıq maddəsi ilə cinayət işi qaldırılıb. Dərhal AXCP sədri Ə. Kərimli və İ.Qəmbər onun müdafiəsi ilə bağlı bəyanatla çıxış etdilər. Yəni onu müdafiə etdilər. Birmənalı tərzdə demək olar ki, bu dağıdıcı ünsürlər eyni mərkəzdən idarə olunurlar. A.İsmayılov Azərbaycan dövlətinin və xalqının əleyhinə apardığı işlərin bədəlini ödəməlidir. O, məni təhqir edib və ünvanıma ağır ittihamlar irəli sürüb. Müxalif mətbuatın önündə özünü qəhrəman kimi göstərir, əslində isə, o, tülkü kimi qorxağın biridir. 4 dəfədir ki, məhkəməyə gəlmir, məcburi gətirilməsi barədə məhkəmə qərar çıxarıb. Yanvarın 29-da məhkəməyə gəldi, ancaq jurnalistlər önündə şou yaratdıqdan sonra, qaçdı. Buna baxmayaraq, fevralın 1-də A.İsmayılov məhkəməyə əli-qolu bağlı şəkildə gətiriləcək. O, istəyir ki, belə bir fikir formalaşdırsın ki, guya Azərbaycan qanunları işləmir demək istəyir ki, bax, görürsünüzmü məni məhkəməyə apara bilmirlər. Ancaq bu biçarə yanılır, qanun tam gücü ilə işləyir. Artıq onun Azərbaycandan çıxışına qadağa qoyulub. "Donos" verə bilməyəcək. Hələ Azərbaycandan çıxışına qadağa qoyulmamışdan öncə, o, Almaniyada oturub, xarici ağalarının tapşırığı ilə Azərbaycan dövlətinin əleyhinə şər və böhtanlar səsləndirirdi. İndi isə, böhtanlarını səsləndirməkdən məhrum edilib.

***- Xarici məkrli qüvvələrin Ə.Kərimli və İ.Qəmbərə nəyə görə dəstək verdikləri cəmiyyətə bəllidir. A.İsmayılovun xarici qüvvələrin maraq dairəsinə düşməsi nə ilə bağlıdır?***

- Azərbaycanda sabitliyi pozmaq və Azərbaycanı qarışdırmaq istəyən xarici qaranlıq dairələr var. Xarici kəşfiyyat həmişə istəyir ki, Azərbaycan daxilində onlara xidmət edən insanların sayı çox olsun. Yəni birdən bu olmaz, o birisindən yapışsınlar. Deməli olar ki, bunların hamısı eyni mərkəzdən maliyyələşirlər. Yadınıza gəlirsə, A.İsmayılov 5-6 ay bundan əvvəl deyirdi ki, ki, Soros Azərbaycanda prezident olmağımı istəyirdi, mən özüm gəlmədim. Yəni A.İsmayılov özü dedi ki, Soros məni maliyyələşdirir və Soros Gürcüstanda Saakaşvilini hakimiyyətə gətirdiyi kimi, məni də Azərbaycanda ali vəzifəyə gətirmək istəyir, hələlik, mən buna razılıq vermirəm. Görürsünüz, A.İsmayılov deyir ki, razılıq vermirəm, yəni razılıq versəm, Azərbaycan qarışacaq.

A.İsmayılov Ə.Kərimlinin, İ.Qəmbərin və C.Həsənlinin tapşırığı ilə məni təhqir edir. Buna görə də, onu məhkəməyə vermişəm. Ona qarşı Cinayət Məcəlləsinin iki maddəsi ilə cinayət işi qaldırılıb, o, bu maddələrlə 6-7 il azadlıqdan məhrum ediləcək. Düşünürəm ki, növbəti məhkəmə prosesinə əli, qolu bağlı gətiriləcək və bununla da, A.İsmayılovu həbsxanada görəcəyik.

***- 2018-ci il prezident seçkiləri ili olduğundan bu il A.İsmayılov, Ə.Kərimli və İ.Qəmbər hansısa təxribatlar və pozuculuq aktları törədə bilərlərmi?***

- Təxribatlar törətmək onların bir nömrəli qırmızı xətdən keçən ideyalarıdır və buna da ciddi hazırlaşırlar. Yəqin ki, xaricdə olan havadarları bunlara hazır olmaları barə də komanda veriblər. Hələlik, İ.Qəmbər, Ə.Kərimli və C.Həsənli seçkilərdə namizədliklərini irəli sürməyi planlaşdırırlar. Azərbaycanı xaricdə istəməyən qüvvələr onların hər birindən bir alət kimi istifadə etməyi nəzərdə tutur. Seçkilərə xələl gətirmək üçün cəhdlər də olacaq. Azərbaycan hüquqi - demokratik dövlət quruculuğuna xüsusi önəm verir və bu yolla inamla irəliləyir. Demokratik şəkildə prezident seçkiləri keçiriləcək. Demək olar ki, isaların, kərimlilərin bir nömrəli planı məni sıradan çıxartmaqdır. Düşünürlər ki, əgər H.Hacıyev dəyirmi masada olacaqsa, biz orada otura bilməyəcəyik, ya bizi döyəcəkdir, ya da ifşa edəcəkdir. Eks-spiker R.Quliyev açıq şəkildə deyir ki, ya H.Hacıyevi öz tərəfimizə çəkək, ya da öldürək.

***- Müxalifətdə bir necə "vahid namizəd" olmaq iddiasında olan partiya sədri var. Sizcə, xarici qüvvələr onların hansına dəstək verəcək?***

- Müxalifət partiya sədrlərinin ixtiyarı özlərində deyil. Yəni bunların hamısı xaricdəki mərkəzlərdən idarə olunurlar. O mərkəzlər nə desə, o olacaqdır. İndi bunlar gözlərini dikiblər Avropada familiyalarını dəyişmiş Senatın, Konqresin üzvü ermənilərə. Bildiyiniz kimi, "Milli Şura"nın sədri C.Həsənlinin qızının qayınatası ermənidir və o da ABŞ-da nüfuz sahiblərindən biridir. O cümlədən, erməni olan kürəkəni də ABŞ-da yaşayır. Bunlar ciddi şəkildə Azərbaycan əleyhinə işləyirlər. Ona görə də, ola bilsin ki, bunlar bir necə nəfərin namizədliyini irəli sürmə oyunu oynasınlar. Mən onların məkrli niyyətlərini bilirəm, nə müzakirələr apardıqlarını da təxmin etmişik. Amma nə planlaşdırmalarından asılı olmayaraq, onların bəd niyyətləri həyata keçməyəcək, udan və qalib gələn xalq-iqtidar birliyi olacaq.

**GÜLYANƏ**

# Sosial şəbəkələr də müxalifət üçün arzuolunmaz nəticələr verməyə başlayır

***Hər kəsə bəlli olan fakt ondan ibarətdir ki, bu il prezident seçkiləri ilidir. Dövlətini sevən, xalqına bağlı olan, milli maraqları hər şeydən üstün tutan insanlar taleyüklü tədbirin keçirilməsi gününü səbrsizliklə gözləyirlər. Ancaq əks-mövqedə dayanan bir ovuc məram və məqsədini anlamayan insanlar bu ilin onlar üçün növbəti siyasi intihar ili olacağını anladıqlarından, müxtəlif pozucu aktlar həyata keçirir və populist bəyanatlarla çıxış etməklə, ictimai əhval-ruhiyyəyə, xırda da olsa, kölgə salmağa çalışırlar.***

Xüsusilə də, bu ünsürlər sahibi olduqları qəzetlərin və saytların ictimaiyyət tərəfindən oxunmadığını başa düşdüklərindən, bütün güc və imkanlarını sosial şəbəkələrdə qurmaqla davam etdirirlər. Demək olar ki, AXCP, Müsavat və digər dağıdıcı müxalif ünsürlərinin başbilənlərinin hər birinin bir neçə saxta profilləri var. Həmin saxta profillərlə insanları gözdən salmağa, şərəf və ləyaqətlərini təhqir etməyə çalışırlar. Dəfələrlə bu ünsürləri məhkəmələrə verib, onlar haqqında müvafiq cəza tədbirlərinin görülməsi barədə qətnamələrin qəbul edilməsinə baxmayaraq, nəticəsi olmayıb. Yəni bu məxluqlar sosial şəbəkələrdə təxribatçı və pozucu əməllərini davam etdiriblər.




### Aslan o şəxsdir ki, Qriqoryanla şəkil çəkdirmişdi

Bu arada yuyulmamış çömçə kimi ortaya çıxıb AXCP və Müsavat funksionerlərinə yarınmağa çalışanlar da olur ki, bunlar da onların müstəqil olmadıqlarını göstərir. Bələlərindən biri də özünü hüquqşünas kimi təqdim edən və çalışan Aslan İsmayılovdur. Bu, o şəxsdir ki, ötən əsrin 90-cı illərində Sumqayıt şəhərində baş verən erməni təxribatlarının qarşısının alınması üçün azərbaycanlı fədakarları gözdən salmaqla ermənilərin maraqlarından çıxış etmişdir. Yəni SSRİ prokurorluğunun mühüm işlər üzrə müstəntiqi kimi, Moskvadan Bakıya gələn A.İsmayılovun üzərinə götürdüyü əsas vəzifə ermənilərin müdafiəsi olmuşdur. Hətta ermənilərin Sumqayıt şəhərində yaratdıqları qrupun başçısı olan Qriqoryanla şəkil çəkdirən Aslan İsmayılov onu ən mübariz şəxs adlandırmışdır. Sonralar da A.İsmayılov Qriqoryanın həbs edilməsi zamanı onun müdafiə olunması üçün bir sıra cəhdlər göstərir.

Bu gün də A.İsmayılov ənənəvi ampluasındadır. Əsas fəaliyyəti dövlətə bağlı olan şəxsləri ləkələmək və onların gözdən salınmasını həyata keçirməkdir. Aradabir Müsavatın və "Milli Şura"nın mini-aksiyalarında tribuna önünə çıxaraq, qarışıq söz və ifadələrlə ağlına deyil, ağzına gələni danışır. Ən biabırçısı odur ki, bu məxluq mitinqlərdəki çıxışlarını, küçədə kiminləsə etdiyi söhbətləri, dükan-bazarda kartof-soğanalma prosesini videolentə alıb və sosial şəbəkələrə yükləyir.

### Hafiz Hacıyev Aslan İsmayılovun həbsinə nail ola biləcəkmi?

Qondarma hüquqşünas Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyevi də hədəfə alaraq, onun ünvanına təhqiramiz ifadələr səsləndirib. İttihamları cavabsız buraxmayan H.Hacıyev onunla haqq-hesab çəkmək üçün məhkəməyə müraciət edib. Bizimlə söhbətində H.Hacıyev bir neçə dəfə keçirilən məhkəmə prosesinə Aslan İsmayılovun gəlmədiyini bildirərək, onu da qeyd etdi ki, qanunun bütün güc və imkanlarından istifadə etməklə, onun həbsinə nail olacaq. H.Hacıyev Müsavatın keçmiş başqanı İ.Qəmbərin, AXCP sədri Ə.Kərimlinin A.İsmayılovu ortaya atıb, bir kukla kimi oynatdıqlarını bildirdi. Onu da qeyd etdi ki, A.İsmayılovu dövlət və hökumət əleyhinə şər və böhtanlar səsləndirməyə İ.Qəmbər və Ə.Kərimli təhrik edir.

Bir sözlə, A.İsmayılov çox pis yerdə yaxalanıb. Prinsipiallığı və qətiyyətiliyi ilə seçilən H.Hacıyev onun həbsinə nail olmayınca, yəqin ki, bu mübarizəsindən əl çəkməyəcəkdir. Əgər H.Hacıyev öz iddiasını reallaşdıra bilsə, cəmiyyət bir tarakandan da canını qurtarmış olacaq. Eyni zamanda, bu, sosial şəbəkələr vasitəsilə insanları hədəf seçib, təhqir edənlər üçün bir dərs ola biləcək. Yəqin ki, bundan sonra AXCP və Müsavat funksionerləri, eləcə də, onların əlaltıları sosial şəbəkələrdə insanların şərəf və ləyaqətinin təhqir edilməsinin onlar üçün ağır nəticələr verə biləcəyini başa düşəcəklər. Hər halda, H.Hacıyevin A.İsmayılova qarşı qaldırdığı iddia çox mətləblərdən xəbər verir.

**İ.ƏLİYEV**

# Nardaranda avtomatı üç il əvvəl torpağa basdıraraq gizlədən şəxs saxlanılıb

Əllərdə qanunsuz olaraq saxlanılan, müxtəlif üsullarla gizlədilən odlu silah-sursatın və onların hissələrinin aşkar edilməsi məqsədilə daxili işlər orqanları tərəfindən Sabunçu rayonu, Nardaran qəsəbəsində növbəti əməliyyat tədbiri həyata keçirilib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, yanvarın 27-də Sabunçu Rayon Polis İdarəsinin 42-ci polis bölməsinə Nardaran qəsəbəsində yaşayan Süleyman Süleymanovda odlu silah olması barədə əməliyyat məlumatı daxil olub. Həmin gün S.Süleymanov qəsəbə ərazisində saxlanılaraq 42-ci polis bölməsinə gətirilib. Aparılan profilaktik söhbətlər zamanı o, odlu silaha sahib olduğunu etiraf edərək həmin silahı qəsəbə ərazisində yerləşən Ümid Qayası deyilən yerdə basdırdığını bildirib.

Bölmə əməkdaşları şahidlərin iştirakı ilə qeyd olunan ünvana baxış keçirib. Orada olan tikilinin içərisində axtarış aparılıb və torpağın altında gizlədilən nömrəsi silinmiş 1 ədəd AK-74 markalı avtomat, 1 ədəd sandıqça və 15 ədəd 5.45 kalibrli patron aşkar olunaraq götürülüb. Saxlanılan şəxs ifadəsində həmin silah-sursatı 2015-ci ilin dekabr ayında qəsəbədəki "Rəhimə xanım" ziyarətgahının yaxınlığından tapdığını və polisə təhvil verməyərək basdırdığını bildirib. Faktla bağlı 42-ci polis bölməsində toplanan material araşdırılması üçün Sabunçu Rayon Polis İdarəsinin istintaq şöbəsinə göndərilib.

# Neapolda əməliyyat - Farellinin 19 mafiozu tutuldu

İtaliyanın Neapol şəhərində polis qüvvələri "Kamorra" mafiyasına qarşı növbəti əməliyyat keçirib. Trend-in məlumatına görə, əməliyyat nəticəsində Farelli klanına mənsub 19 nəfər saxlanılıb. Onlara qarşı reket, silah və narkotik alveri, cinayətkar qruplaşma yaratmaq ittihamları irəli sürülüb. Xatırladaq ki, ötən həftə İtaliya polisi Neapolda, eləcə də Siciliyada bir neçə əməliyyat keçirib və 150-dən çox şəxsi saxlayıb.

# Azərbaycan Respublikası Konstitusiyasında siyasi hüquq və azadlıqların təsbit olunması

**Bütün demokratik dövlətlərdə siyasi hüquq və azadlıqlar xalqların siyasi mədəniyyətinin ayrılmaz tərkib hissəsinə çevrilmişdir. İnsan hüquqlarına hörmət etmək xalqlar arasında qarşılıqlı əlaqəni möhkəmləndirir, onların hərtərəfli əməkdaşlığı üçün əlverişli şəraitin yaranmasına səbəb olur. Ümumi humanist hüquqi baza olmadan, xalqların yaxınlaşması və onların inteqrasiyası mümkün deyil.**

Bu gün Azərbaycanda hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu uğurla inkişaf edir. Azərbaycanda aşağıdakı proseslər artıq reallaşmışdır:

- qanunun aliliyi, hüququn üstünlüyü;
- vətəndaşların hüquqlarının müdafiəsi;
- dövlət hakimiyyəti həddinin müəyyən edilməsi;
- şəxsiyyətin hüquqlarının təmin edilməsi;
- qrup hüquqlarının müdafiəsi;
- hakimiyyət bölgüsü;
- məhkəmə və qanun qarşısında hamının bərabərliyi;
- konstitusiya nəzarəti;
- dövlət və qeyri-dövlət təsisatlarının (partiyaların, ictimai təşkilatların və s.) funksiya və səlahiyyətlərinin məhdudlaşdırılması;
- dövlətin vətəndaşlar qarşısında məsuliyyəti, vətəndaşların sosial mühafizəsi və onların dövlət qarşısında məsuliyyəti.

Azərbaycanda yaradılan hüquqi-demokratik dövlətdə və vətəndaş cəmiyyətində aşağıdakı hüquqi normalar və tələblər həyata keçirilmişdir:

- vətəndaşların hüquq və azadlıqlarına hərtərəfli təminatın verilməsi;
- vətəndaşların konstitusion hüquq və azadlıqlarının praktiki reallaşdırılması və müdafiəsinə dair nizamlı, mürəkkəb olmayan və asan hüquqi mexanizmin olması;
- vətəndaşların hüquqyaradıcı prosesdə iştirakına dair işlənmiş demokratik prosedurların mövcudluğu;
- ölkə vətəndaşlarının yüksək hüquqi bilik və hüquqi mədəniyyət səviyyəsinin olması.

Azərbaycan Respublikası Konstitusiyasında aşağıdakı siyasi hüquq və azadlıqlar təsbit olunmuşdur:

- sərbəst toplaşmaq azadlığı;
- cəmiyyətin və dövlətin siyasi həyatında iştirak etmək hüququ;
- dövlətin idarə olunmasında iştirak etmək hüququ;
- seçki hüququ;
- referendumda iştirak etmək hüququ;
- müraciət etmək hüququ;
- birləşmək hüququ;
- siyasi sığınacaq hüququ və s.

Vətəndaşların sərbəst toplaşmaq azadlığı Konstitusiyasının 49-cu maddəsində təsbit olunur ki, hər kəsin başqaları ilə birlikdə sərbəst toplaşmaq azadlığı və başqaları ilə birlikdə müvafiq dövlət orqanlarını qabaqcadan xəbərdar etməklə dinc, silahsız yığışmaq, yığıncaqlar, mitinqlər, nümayişlər, küçə yürüşləri keçirmək və paketlər düzəltmək hüququ vardır.

Azərbaycan cəmiyyətinin demokratikləşdirilməsini şərtləndirən müddəalardan biri kimi konstitusiyanın 54-cü maddəsində təsbit olunmuş "cəmiyyətin və dövlətin siyasi həyatında iştirak etmək hüququ" çıxış edir: Azərbaycan Respublikası vətəndaşlarının cəmiyyətin və dövlətin siyasi həyatında iştirak etmək hüququ vardır. Dövlətə qarşı qiyama və ya dövlət çevrilişinə müstəqil müqavimət göstərmək Azərbaycan Respublikasının hər bir vətəndaşının hüququdur. Bu baxımdan, vətəndaşların dövlətin idarə olunmasında iştirak etmək hüququnun konstitusiyada təsbit edilməsi də olduqca əhəmiyyətlidir. Bu hüququ onlar, bilavasitə və ya nümayəndələrin vasitəsilə həyata keçirə bilərlər. Həmin maddənin ikinci hissəsində göstərilir ki, "Azərbaycan Respublikasının vətəndaşları dövlət orqanlarında qulluq etmək imkanına malikdirlər. Dövlət orqanlarının vəzifəli şəxsləri Azərbaycan Respublikasının vətəndaşları sırasından təyin edilirlər. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər dövlət qulluğuna qanunla müəyyənləşdirilmiş qaydada qəbul edilə bilərlər".

Konstitusiyada təsbit olunmuş hüquq və azadlıqlar sisteminə seçki hüquqları da daxilidir. 56-cı maddənin birinci bəndinə görə, Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarına seçmək, habelə, referendumda iştirak etmək hüququ vardır. Bu hüquqların təyinatı dövlət hakimiyyəti və həmçinin, yerli özünüidarə orqanlarının seçkilər yolu ilə formalaşdırılmasından ibarətdir. Azərbaycanda müstəqillik şəraitində, xüsusilə də, 90-cı illərin ikinci yarısından başlayaraq, həyata keçirilən seçkilər əhalinin siyasi mədəniyyəti səviyyəsinin yüksəldilməsi və cəmiyyətdə demokratik ənənələrin möhkəmləndirilməsində böyük rol oynamışlar.

Konstitusiyanın 56-cı maddəsində seçki hüququ ilə sıx bağlı şəkildə, qeyd etdiyimiz kimi, vətəndaşların referendumda iştirak etmək hüququ da təsbit edilir. Beləliklə də, Azərbaycan vətəndaşlarına, azad seçkilərdə olduğu kimi, referendumda da iştirak edərək, birbaşa öz iradəsini ifadə etmək hüququ verilir.

Seçkilərdə və referendumda iştirak etməklə, vətəndaşların dövlətin idarə olunmasında iştirak etmək hüquqları məhdudlaşmır. Xalq hakimiyyətinin həyata keçirilməsinin əsas formasını seçilmiş şəxslər vasitəsilə nümayəndəlik forması təşkil edir. Bu baxımdan, Azərbaycan Konstitusiyasının nümayəndəli orqanların təşkili və fəaliyyətinə, dövlət hakimiyyətinin həyata keçirilməsi mexanizmində onların yeri və roluna dair müddəaları olduqca əhəmiyyətlidir.

Siyasi hüquq və azadlıqları sisteminin vacib komponentlərindən biri birləşmək hüququdur. Azərbaycan Respublikası Konstitusiyasının 58-ci maddəsinə uyğun olaraq, hər kəsin başqaları ilə birləşmək hüququ vardır və hər kəs istənilən birlik, o cümlədən, siyasi partiya, həmkarlar ittifaqı və digər ictimai birlik yaratmaq və ya mövcud birliyə daxil olmaq hüququna malikdir. Bu hüququn konstitusiyada təsbit olunması Azərbaycanda siyasi müxtəlifliyin və çoxpartiyalılığını ictimai həyatın ayrılmaz hissəsinə çevrildiyini göstərir. Bunu, həm də ölkədə çoxpartiyalılıq əsasında keçirilən prezident və parlament seçkiləri təsdiq edir. Bütün bunlarla yanaşı, konstitusiyada siyasi partiyalar və ictimai birliklərə aid ümumi müddəalar da vardır. Belə ki, 58-ci maddənin dördüncü hissəsi ilə Azərbaycan Respublikasının bütün ərazisində və ya hər hansı hissəsində konstitusiyada təsbit olunmuş məqsədlərə zidd, qanuni dövlət hakimiyyətini zorla devirmək məqsədləri güdən birliklər qadağan edilir. Konstitusiyanın və qanunları pozan birliklərin fəaliyyətinə yalnız məhkəmə qaydasında xitam verilə bilər.

Azərbaycan Respublikasının Konstitusiyası, həmçinin, vətəndaşların yığıncaqlar, mitinqlər, nümayişlər, küçə yürüşləri keçirmək və piketlər təşkil etmək hüquqlarını elan edir ki, bu da, ölkə vətəndaşlarının sosial və siyasi fəallığı və dövlətin idarə edilməsi prosesinə təsir göstərə bilmək üçün yaradılan imkanlardan xəbər verir.

Yuxarıda qeyd olunan siyasi hüquq və azadlıqlarla yanaşı, Azərbaycan Konstitusiyasında, həmçinin, vətəndaşlıq hüququ, dövlət orqanlarına şəxsən və ya kollektiv surətdə şikayət və təkliflər göndərmək və bu orqanların fəaliyyətini tənqid etmək imkanı verən müraciət etmək hüququ öz əksini tapmış, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqlarına təminat verilərək, onların siyasi sığınacaq alması təsbit olunmuşdur.

Bütövlükdə, konstitusiyada təsbit olunmuş siyasi hüquqların siyahısı Azərbaycanın müasir siyasi inkişafının ümumi tendensiyalarını əks etdirir. Onu da, qeyd etmək lazımdır ki, siyasi hüquqların əksəriyyəti yalnız Azərbaycan vətəndaşlarına mənsubdur. Məsələn, birləşmək hüququ yalnız Azərbaycan vətəndaşlarına siyasi partiyalarda, həmkarlar ittifaqı və digər ictimai birliklərdə fəaliyyət göstərmək imkanı verir və bu hüquq xaricilərə, həmçinin, vətəndaşlığı olmayan şəxslərə yayılmır. Bundan başqa, sərbəst toplaşmaq, dövlət işlərinin idarə olunmasında iştirak etmək və bir sıra digər hüquqlar təkcə vətəndaşlara verilir.

**Vahid ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**

Yuxarıda qeyd olunan siyasi hüquq və azadlıqlarla yanaşı, Azərbaycan Konstitusiyasında, həmçinin, vətəndaşlıq hüququ, dövlət orqanlarına şəxsən və ya kollektiv surətdə şikayət və təkliflər göndərmək və bu orqanların fəaliyyətini tənqid etmək imkanı verən müraciət etmək hüququ öz əksini tapmış, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqlarına təminat verilərək, onların siyasi sığınacaq alması təsbit olunmuşdur.







*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# Səs

Son səhifə 31 yanvar


## Şahzadələrin adı sikkədə əbədiləşdirildi



Böyük Britaniya taxtının 3 varisinin - şahzadə Çarlz və onun övladı şahzadə Uilyam və nəvəsi şahzadə Corcun adları 5 funt sterlinq dəyərində yeni sikkədə yer alıb. Trend-in məlumatına görə, kraliça II Yelizavetanın da adının yer aldığı bu sikkə "Kral ailəsinin dörd nəsli" kolleksiyasına daxil olacaq. Bu sikkələr qızıl və gümüşdən hazırlanıb. Gümüş sikkələrin dəyəri 218 dollar, qızıl sikkələrin dəyəri 12 min dollar təşkil edir. Qeyd olunur ki, yaxın zamanlarda kraliça Yelizavetanın tacqoyma mərasiminin 60 illiyi, şahzadə Çarlzın 70 illiyi və şahzadə Corcun beş yaşı münasibətilə sikkələrin hazırlanması planlaşdırılır.

## Dünyanın ən yaşlı kişisi 113 yaşında öldü

İspaniyanın Badaxos əyalətində dünyanın ən yaşlı kişisi Fransisko Nunyes Oliveyra 113 yaşında vəfat edib. Trend-in məlumatına görə, o, 1904-cü ilin dekabrında anadan olub. F.N.Oliveyra 90 yaşından sonra iki müxtəlif əməliyyat keçirib. Onun 4 övladı, 9 nəvəsi və 15 nəticəsi var.

Qeyd edək ki, ondan əvvəl dünyanın ən yaşlı kişisi 117 yaşında ötən ilin avqustunda İsraildə vəfat etmişdi. İndi bu ada iki namizəd var: 1905-ci ilin iyulunda anadan olmuş yaponiyalı Masadzo Nonaka və həmin ilin oktyabrında doğulmuş almaniyalı Qustav Gernet.

## Yeniyetmələrdə cinsi inkişafın gecikməsi hormon çatışmazlığı ilə nəticələnə bilər



Azərbaycan Tibb Universitetinin (ATU) Tədris Cərrahiyyə Klinikasında cinsi inkişafdan geri qalan gənc qızın müalicəsi müsbət nəticələnib. Bu barədə klinikanın I mamalıq-ginekologiya kafedrasının dosenti, tibb elmləri namizədi Natəvan Axundova universitetin mətbuat xidmətinə məlumat verib.

Həkimin sözlərinə görə, 18 yaşı olmasına baxmayaraq bu qızın boyu 1,58 metr, çəkisi isə 40 kiloqram olub. O, laborator və instrumental müayinələrdən keçirilib: "Qızın orqanizmində keçid dövrü ilə əlaqədar heç bir əlamət yox idi. Hətta onun süd vəziləri də inkişaf etməmişdi. İlk müraciətdə uşaqlığın və yumurtalıqların ölçülərinin kiçik olduğu görüldü. Müayinələr zamanı xəstədə gonadotropin və estradiolun hormonu, D vitamini və nəzərə çarpacaq dərəcədə dəmir defisitli anemiya aşkar edilib. Müvafiq müalicədən sonra qızda ikincili cinsi əlamətlər inkişaf edilib, uşaqlıq və yumurtalıqların ölçülərində nəzərəçarpacaq böyümə müşahidə edilib. Belə problemlər olduqda müalicənin vaxtında başlanılması reproduktiv (nəsiltörətmə) fəaliyyəti yaxşılaşdırılmaqla yanaşı, onları estrogen hormonu çatışmazlığının yarada biləcəyi fəsadlardan da qoruyur".

Qeyd edək ki, N.Axundovanın tibb elmləri namizədi, həm də tibb elmləri doktoru elmi dərəcələri almaq üçün təqdim etdiyi dissertasiyaların mövzuları endokrinoloji ginekologiyaya həsr edilib.

## ELAN

Bakı İnventarlaşdırma və Reyestr Xidməti tərəfindən 17.06.2004-cü ildə 30/12834 tarixli sərəncamla Mərdəkan qəsəbəsi, 1958 ünvanlı bağ Verdiyeva Gülnaz Ələkbər qızına verilmişdir. BM seriyalı və 001816 №-li həmin Qeydiyyat Vəsiqəsi (Çıxarış) itdiyi üçün etibarsız sayılır.

## Elxan Məmmədov: Millətlər Liqası bizim üçün yeni imkanlar və şanslar yaradır



Millətlər Liqası bizim üçün yeni imkanlar və şanslar yaradır. Artıq rəqiblərimiz də bəllidir. Bəzi rəqiblərlə yaxın keçmişdə oynamışıq, tanış komandalardır. AZƏRTAC xəbər verir ki, bu sözləri Antalyada təşkil olunmuş brifinqdə AFFA-nın baş katibi Elxan Məmmədov deyib.

Baş katib bildirib ki, Antalyada ilk yoxlama oyunu keçirəcəyik. Əsas məqsəd futbolçuları yoxlamaqdır. Martda ikinci sınaq oyunumuz da olacaq. Kosovo Beynəlxalq Olimpiya Komitəsi, FIFA və UEFA üzvü kimi artıq Azərbaycana səfər edib. Onların U-21 komandası da Bakıya gəlib. Bu addımı atmamışdan əvvəl Xarici İşlər Nazirliyi ilə dəqiqləşdirdik və UEFA-ya bildirdik. Oyundan əvvəl bir daha XİN ilə məsləhətləşəcəyik, düşünürəm ki, bir problem olmayacaq. "Bundan əvvəl iki əcnəbi baş məşqçi ilə işlədik. Bura gələnə qədər onları tanımırdıq. Amma Qurban Qurbanovu 10 ildir ki, yaxından tanıyırıq. Əvvəl də futbolçu kimi azarkeşlik edirdik. İndi bilirəm ki, sürprizlər olmayacaq. Əsas məsələ uzunmüddətli düşünməkdir və bütün yaş qrupları üzrə yığmaların eyni sistemlə oynamasıdır", - deyə Elxan Məmmədov əlavə edib. Elxan Məmmədov deyib: "Millətlər Liqasında məqsədimiz birinci yeri tutmaqdır. Düşünürəm ki, komanda bunu bacaracaq gücdədir. Yeni şüar barədə marketinq şöbəsinin əməkdaşları düşünürlər. Bundan əvvəlki "Niyə də yox?" şüarı ölkədə çox populyar oldu. Düzdür, seçmə mərhələnin sonu uğursuz olduğuna görə şüar axırda komik format aldı, buna baxmayaraq, addım özünü doğrultmuşdu. Millətlər Liqasında yolumuz Ermənistanla kəsişə bilər. Bu, problemli oyundur. Püşkə görə bu mərhələdə düşə biməzdik, amma növbəti mərhələdə qarşılaşa bilərik. UEFA bizə şifahi olaraq xəbərdarlıq etdi ki, bu hal baş versə, məsələyə İcraiyyə Komitəsi qarışacaq. Oyun olacaqmı, olacaqsa, harada olacaq. Amma futbol elədir ki, yekunda FIFA və UEFA-nın tövsiyələrini nəzərə alacağıq. Nə lazım olsa, onu da edəcəyik. Neytral meydançada olsa da, oyun baş tutacaq. Eyni qaydada canlı yayım, sponsor problemləri var".

## "Beşiktaş" klubu Lavla 2,5 illik müqavilə imzalayıb



Braziliyalı futbolçu Vaqner Lav "Alanyaspor" klubundan "Beşiktaş"a transfer olub. İstanbul klubunun rəsmi saytında yer alan xəbərə görə, 33 yaşlı hücumçu "Beşiktaş"la 2019/2020-ci il mövsümünün sonunadək müqavilə imzalayıb. Transfer məbləğinin 3,7 milyon avro olduğu bildirilir. Qeyd edək ki, Vaqner Lav ötən mövsüm 28 oyunda 23 qol vurmaqla Türkiyə çempionatının bombardiri olub. Cari mövsümdə isə forvard çempionatda 14 maç keçirib və 10 dəfə fərqlənib.

## Eddi İsrafilov "Alkorkon" klubuna keçib



Azərbaycan futbolçusu Eddi İsrafilov İspaniyanın "Ximnastik" klubunu tərk edib. Yarımmüdafiəçi artıq İspaniya Sequndasının digər klubuna - "Alkorkon"a öz keçidini təsdiqləyib. Tərəflər 2019/2020-ci il mövsümünün sonunadək müqavilə imzalayıblar.

Xatırladaq ki, İsrafilov "Ximnastik" klubuna cari mövsümün əvvəlində keçmişdi. Hazırda E.İsmayılovun yeni komandası 29 xalla turnir cədvəlinin 16-cı pilləsindədir və futbolçunun artıq keçmiş komandasını bir pillə geridə qoyub.

## "Arsenal" Obameyanqın transferində "Borussiya" ilə razılığa gəlib



"Arsenal" futbol klubu "Borussiya" komandası ilə Pyer-Emerik Obameyanqın transferində razılığa gəlib. "Arsenal"ın 50 milyon funt sterlinqlik təklifini geri çevirən Dortmund klubunun razılığa gəlməsində başlıca səbəb kimi onların 60 milyonluq tələbinin yerinə yetirilməsi göstərilir. Bundan başqa, qabonlu hücumçunun transferilə bərabər, "Arsenal" qarşı tərəfə hazırda zədəli olan fransalı forvardı Olivye Jirunu da buraxmağa razılıq verib. Həmçinin London klubu Jirunu Alvaro Moratanın zədəli olması fonunda hücumçu problemi yaşayan əzəli rəqibi "Çelsi"yə də 35 milyon funt qarşılığında satmağa hazırdır. Qeyd edək ki, beynəlxalq "transfer pəncərəsi" fevralın 1-də bağlanır. Bu transferlərin həmin tarixədək rəsmiləşəcəyi gözlənilir.

## "Çelsi"nin futbolçusu "Seltik"də

"Çelsi" futbolçusu Çarli Musondanı icarəyə verib. SİA-nın məlumatına görə, 21 yaşlı yarımmüdafiəçi karyerasını Şotlandiyada davam etdirəcək. Belçikalı futbolçunu son çempion "Seltik" icarə əsasında sıralarına qatıb. Onunla 1,5 illik müqavilə bağlanılıb. Qeyd edək ki, Belçikanın U-21 millisinin üzvü olan Musonda "Çelsi"nin əsas komandasında 3 oyun keçirib.


*Baş redaktor:*
Bəhruz Quliyev
*Baş redaktorun müavinləri:*
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

*Buraxılışa məsul: Mətləb Salahov*
Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500